www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 4 iyul 2018-ci il Çərşənbə № 142 (7031) Qiymәti 60 qəpik

**Xəbər**

## Mingəçevir su anbarında vəziyyət- ekspertlər danışdı

yazısı səh.10-da

**Gündəm**

### Müdafiə sənayesi naziri postuna şanslı namizədlərin adı bilindi



Yeni nazir mərhum Yavər Camalovun dövründə müavini işləyənlərdən biri ola bilər

yazısı səh.5-də

### Rusiyaya yaxınlaşmaq təhlükəsizdirmi?

yazısı səh.9-da

### Müxalifət QAT-ın birgə Qarabağ mitinqinə "hə" dedi

yazısı səh.3-də

### AŞ PA-ya giriş qadağası olanlar bunları etməlidir - prosedur

yazısı səh.9-da

### Bakı-Moskva münasibətlərində dönüş - Qarabağı nə gözləyir?

yazısı səh.11-də

### MEA-nın vitse-prezidentinə sərt ittiham

yazısı səh.3-də

### Bakının icra başçısı müəmması davam edir

yazısı səh.12-də

### Saakaşvilinin yaxın adamından "Yeni Müsavat"a açıqlamalar

yazısı səh.13-də

### Turistlər üçün qadağalar-bunları bilmədən səyahətə çıxmayın

yazısı səh.14-də

### Prokuror "Nardaran işi" üzrə təqsirləndirilən şəxslərə 29 il həbs cəzası istədi

yazısı səh.2-də

### Rusiya millisinin uğurunun sirri- oyunçulara çip qoyulub

yazısı səh.15-də

## 3 iyul qaranlığından sonrakı axşam - yenə işıqlar söndü

# PREZİDENT ENERJİ QƏZASINI ARAŞDIRMAĞI XÜSUSİ KOMİSSİYAYA TAPŞIRDI

Dövlət başçısı İlham Əliyev baş vermiş hadisənin səbəblərinin araşdırılması və təqsirkar şəxslərin müəyyən edilərək məsuliyyətə cəlb edilməsi üçün göstəriş verdi; ölkənin bütün strukturları Mingəçevir İES-də baş vermiş qəzadan sonra yaranmış problemləri aradan qaldırmağa cəlb olunub



yazısı səh.4-də

# Paşinyan üçün kritik gün

İrəvan Moskvanın başı üzərindən Qərbə əl uzadır; Ermənistanın yeni rəhbərliyi Rusiyanı NATO-ya dəyişə biləcəkmi, nankorluğa Kremlin cavabı nə olacaq? Politoloq: "Ermənilər 100 il öncəki kimi yenə özlərini şoseyə çıxmış məlum peşə sahibləri kimi aparırlar..."

yazısı səh.8-də



*Siyavuş Novruzov:*

### "Bu hadisəni təxribatla və ya terrorla əlaqələndirmək yersizdir"

yazısı səh.7-də



### Eldar Mahmudova qarşı "Hacı Məmmədov taktikası"

yazısı səh.6-da



### Fəlakət gecəsi qaranlıqda kəşf olunan gerçəklər ... - Rauf Arifoğlunun yazısı

yazısı səh.5-də

YENİ MÜSAVAT
N 142 (7031) 4 iyul 2018



# İlham Əliyev Donald Trampı təbrik etdi

**Azərbaycan prezidenti İlham Əliyev Amerika Birləşmiş Ştatlarının prezidenti Donald Trampa təbrik məktubu göndərib.**

Məktubda deyilir: "Hörmətli cənab Prezident!

Amerika Birləşmiş Ştatlarının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi qəlbdən təbrik edirəm.

Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatlarını dostluq və tərəfdaşlıq münasibətləri birləşdirir. Regional çağırışlara və terrorizmə qarşı mübarizədə, təhlükəsizlik məsələlərində, eləcə də iqtisadi sahədə ölkələrimiz yaxından və səmərəli əməkdaşlıq edirlər.

Enerji sahəsindəki əməkdaşlığımız xüsusilə əhəmiyyətlidir. Enerji mənbələrinin və nəqlinin şaxələndirilməsinə xidmət edən neft-qaz layihələrimizin Birləşmiş Ştatlar tərəfindən dəstəklənməsi məmnunluq doğurur. Bu yaxınlarda istismara verdiyimiz Cənub Qaz Dəhlizi isə Avropanın enerji təhlükəsizliyinə mühüm töhfədir.

Bununla yanaşı, ölkəmizin qarşılaşdığı ən ağrılı problem olan Dağlıq Qarabağ münaqişəsi hələ də həll olunmamışdır. Biz Ermənistan tərəfindən işğal olunmuş torpaqlarımızın azad olunacağı, qaçqın və məcburi köçkünlərimizin doğma yurd-yuvalarına qayıdacağı günü səbirsizliklə gözləyirik. Buna görə də münaqişənin beynəlxalq hüquq normalarına uyğun olaraq ölkəmizin ərazi bütövlüyü çərçivəsində, sülh yolu ilə və ədalətli həlli üçün ATƏT-in Minsk Qrupunun həmsədri kimi ABŞ-ın və şəxsən Sizin, cənab Prezident, səylərinizə böyük ümidlər bəsləyirik.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Amerika xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm".

# Allahşükür Paşazadə Vyanaya gedir



**Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə Avstriyanın paytaxtı Vyana şəhərinə səfər edəcək.**

QMİ-nin mətbuat xidmətindən verilən məlumata görə, səfərdə məqsəd iyulun 5-də Vyanada keçiriləcək KAİCİİD Dialoq mərkəzinin Direktorlar Şurasının növbəti 18-ci sessiyasında iştirak etməkdir.

Dünyanın nüfuzlu beynəlxalq hökümətlərarası təşkilatı olan KAİSİİD qurumunun 9 nəfərlik Direktorlar Şurasında yer alan yeganə müsəlman din xadimi - Şeyxülislam A.Paşazadənin qatılacağı sessiyanın gündəliyində bir sıra önəmli məsələlər, o cümlədən mərkəzin idarəetmə sistemində mühüm dəyişikliklərlə bağlı müzakirələr nəzərdə tutulub.

# Türkiyə ordusu ötən ay İraqda 300 terrorçunu məhv edib

**Türkiyə Hərbi-Hava Qüvvələrinin İraqın şimalında davam etdirdiyi əməliyyat nəticəsində iyun ayında 300 PKK terrorçusu zərərsizləşdirilib.**

"Trend"in məlumatına görə, bu əməliyyatlar zamanı 19 Türkiyə hərbçisi həlak olub, 28-i yaralanıb.

Qeyd olunur ki, bu müddət ərzində Türkiyənin hərbi hissələrinə hücumların təşkilində iştirak etmiş PKK-nın 6 aparıcı fiquru da məhv edilib. Ermənistanın baş naziri Nikol Paşinyan ölkəsinin Daxili Qoşunlarını işğal altında saxlanılan Dağlıq Qarabağ torpaqlarına yeridib.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

# "Paşinyan ""dalay-dalay" edir..."

**Ermənistanın "Qrapark" qəzetinin yazdığına görə, Daxili Qoşunlar işğalçı qüvvələrə dəstək məqsədilə bölgəyə göndərilib.**

Dağlıq Qarabağın Azərbaycanlı İcmasının rəhbəri Bayram Səfərov Ermənistanın baş naziri Nikol Paşinyanın bu cür addımına sərt reaksiya verib.

Bayram Səfərov modern.az-a açıqlamasında deyib ki, Paşinyan daxildə xalqına verdiyi vədləri yerinə yetirə bilmədiyindən, müxtəlif yollara əl atmaqla məşğuldur:

"Ermənistanın dinc və kasıb əhalisi aclıqdan əziyyət çəkir. Həmin bu ac əhali də Paşinyandan iş yeri və çörək istəyir. Ermənistan hakimiyyəti də bunu edə bilmir. Belə vəziyyətdə Paşinyan nə etməlidir ki?!



Bayram Səfərov

Əlbəttə, polis dəstəsini Dağlıq Qarabağa yeritməlidir. Onların ac polisi varsa, bizim nizamlı ordumuz var. Ona görə də Paşinyan bu cür provokasiyaya əl atır".

**Bayram Səfərov baş nazir Paşinyanın Azərbaycanı hədələyən açıqlamalar verməsinə də münasibət bildirib.**

"Paşinyan bizim nəyimizi hədələyəcək ki?! Onun nəyi var ki! Aşığın sözü qurtaranda "dalay-dalay" deyir. İndi Paşinyan da özü üçün "dalay-dalay" edir. "Dalay-dalay" da qurtarandan sonra hücum etməyə başlayacaq. Çox yaxşı. Etsinlər. Ordumuz onların qarşısında dayanıb. Paşinyanın cavabını verəcəyik. Lazım gəlsə, bir az da irəli gedəcəyik".

## Mərhum jurnalistin kitabına təqdimat keçiriləcək

**Mərhum jurnalist Zabil Müqabiloğlunun kitabı çapdan çıxıb.**

Bu barədə modern.az-a mərhum jurnalistin bacısı Sevinc Əliyeva məlumat verib. Onun sözlərinə görə, Zabil Müqabiloğlu haqqında kitab iyunda çapdan çıxıb: ""Qanun" nəşriyyat evinin rəhbəri Şahbaz Xuduoğlu kitabı çapdan çıxarıb. Kitabın adı Zabil Müqabiloğlunun yazdığı "Son Zəng"dir. Zabil 19 il jurnalistika sahəsində çalışıb. "525-ci qəzet"də işləyib, uzun illər "Yeni Müsavat"da redaktor vəzifəsində, "Tərcüman" və "Avropa" qəzetlərində çalışıb. Ən son günxəbər.com saytının təsisçisi və baş redaktoru olub.

Yaxın günlərdə kitabın təqdimatını keçirməyi düşünürük".

Qeyd edək ki, jurnalist Zabil Müqabiloğlu 2017-ci ilin 26 fevralında qaraciyər sirrozu xəstəliyindən dünyasını dəyişib.

## Pakistan Azərbaycandan meyvə istəyir

**Pakistanın "Rawalpindi Chamber of commerce and İndustry" (RCCİ) Sənaye və Ticarət Palatasının təşkilatçılığı ilə Pakistan-Azərbaycan biznes forumu keçiriləcək.**

Modern.az xəbər verir ki, bu sözləri Pakistanın Azərbaycandakı səfiri Səid Xan Mohmand mətbuat konfransında deyib. Səfir bildirib ki, məqsəd iki ölkə arasında ticarət əlaqələrini inkişaf etdirməkdir: "Düşünürəm ki, bu forum Azərbaycan üçün faydalı olacaq".

Ticarət Palatasının sədri Zahid Latif Xanın sözlərinə görə, forumda iştirak etmək üçün Pakistandan 450-dən çox tekstil, kimya, plastik, mebel, qida, konstruksiya və digər sahələr üzrə ticarət nümayəndələri Azərbaycana gəlib:

"Azərbaycan və Pakistan biznesinin nümayəndələri arasında görüşlər təşkil ediləcək gələcək sərmayə planları müzakirə olunacaq". Pakistanın Azərbaycanın müstəqilliyini tanıyan ilk üç ölkədən biri olduğunu vurğulayan Z. L. Xan qeyd edib ki, Pakistan bir çox sahədə Azərbaycanla əməkdaşlığa maraqlıdır: "Pakistanda olmayan meyvələri Azərbaycandan ala bilərik"-deyə o əlavə edib.

# Prokuror "Nardaran işi" üzrə təqsirləndirilən şəxslərə 29 il həbs cəzası istədi



**Nardaran hadisələrinə görə həbs edilən şəxslərdən daha ikisinin cinayət işi üzrə məhkəmə prosesi keçirilib. Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində "Nardaran işi" üzrə təqsirləndirilən Elxan İsgəndərov və Əbülfəz Bünyatovun cinayət işi üzrə məhkəmə davam etdirilib. Hakim Əfqan Hacıyevin sədrliyi ilə keçirilən prosesdə dövlət ittihamçısı Fərid Nağıyev təqdirləndirilən şəxslərə cəza istəyib.**

Dövlət ittihamçısı Elxan İsgəndərovun 14 il, Əbülfəz Bünyatovun isə 15 il müddətinə azadlıqdan məhrum edilməsini istəyib. Prokuror polis nəzarətində olan Əbülfəz Bünyatovun məhkəmə zalında həbs edilməsini istəyib.

Qeyd edək ki, E.İsgəndərova Cinayət Məcəlləsinin bir çox maddələri ilə ittiham elan edilir. O, 5 noyabr 2015-ci ildə Sabunçu Rayon Polis İdarəsinin qarşısında keçirilən aksiyadan sonra həbs edilib.

O, 15 gün müddətinə inzibati həbs olunub. Daha sonra Sabunçu rayon prokurorunun protesti əsasında Bakı Apelyasiya Məhkəməsinin qərarı ilə Sabunçu Rayon Məhkəməsinin qərarı ləğv olunaraq, onun əməllərində cinayət tərkibinin olub-olmamasını müəyyənləşdirmək məqsədilə iş Sabunçu Rayon Prokurorluğuna göndərilib.

E.İsgəndərov axtarışda olduğundan 15 mart 2017-ci ildə polis əməkdaşları tərəfindən həbs olunub və barəsində həbs-qətimkan tədbiri seçilib.

Hazırda Ə.Bünyatovun səhhətində problem olduğuna görə o, polisin nəzarəti altına verilib. Həbsdə olan Ə.Bünyatov bir müddət azadlığa çıxıb. O, məhkəməyə xərəkdə gətirilir.

❑ **İ.MURADOV**
**Musavat.com**



# Nar abunəçilərinin nəzərinə!




**Elektrik enerjisinin təminatında yaranmış fasilələrlə əlaqədar olaraq, "Nar" şəbəkəsi gücləndirilmiş iş rejiminə keçib. Mobil operator abunəçilərin kəsintisiz və yüksəkkeyfiyyətli rabitə xidmətləri ilə təmin edilməsi üçün zəruri tədbirlər görür.**

**Qeyd edək ki, gecə saatlarında elektrik enerjisinin kəsintisinə baxmayaraq, Nar şəbəkəsinin əksər hissəsi abunəçilərə xidmət göstərib. Hazırda paytaxtda xidmətlərin göstərilməsi baxımından vəziyyət qənaətbəxşdir, müəyyən bölgələrdə yaranmış çətinliklərin aradan qaldırılması işləri davam edir.**

## İran prezidentindən ABŞ-a xəbərdarlıq

**İran prezidenti Həsən Ruhani bəyan edib ki, əgər ABŞ öz müttəfiqlərinə təzyiq edərək Tehrandan xam neft almamağı tələb edərsə, o zaman regionda neft ixracına ciddi manеə və təhdidlər yarana bilər.**

Virtualaz.org yerli KİV-ə istinadən bildirir ki, bu barədə Ruhani İsveçrəyə səfəri zamanı deyib.

"Amerikalılar iddia edirlər ki, İranın neft ixracatını tamamilə dayandırmaq istəyirlər. Lakin onlar bu bəyanatın anlamını dərk etmirlər. Çünki region nefti ixrac olunduğu halda, İran neftinin ixrac olunmaması üçün bu bəyanatın heç bir əhəmiyyəti yoxdur. Əgər siz (amerikalılar - red.) bacarırsınızsa, bunu edin (İranın neft ixracını dayandırmağı nəzərdə tutur - red.) və nə ilə nəticələnəcəyini görün", - deyə Ruhani ABŞ-ı təhdid edib.

Ehtimal olunur ki, Ruhani bu sözlərilə İranın Hörmüz boğazını bağlayacağına eyham vurub. Bu isə ABŞ və onun körfəz müttəfiqləri üçün ciddi manеə və təhdiddir. Çünki Oman körfəzi ilə Fars körfəzi arasında yerləşən Hörmüz strateji əhəmiyyətli boğazdır. Bu boğaz neft ixrac edilən Fars körfəzindən açıq okeana yeganə dəniz çıxışıdır və dünyanın strateji cəhətdən ən mühüm nöqtələrindəndir. Dünya üzrə ixrac edilən neftin 20 faizi Hörmüz boğazı vasitəsilə daşınır. Boğaz həmçinin Körfəz ölkələrində hasil olunan neft və qazın ABŞ, Yaponiya və Avropa ölkələrinə çatdırılması üçün yeganə marşrut yoludur.

Xatırladaq ki, ABŞ administrasiyası sanksiyalarla əlaqədar olaraq, müttəfiq və digər ölkələrdən noyabrdan etibarən İrandan neft idxalını dayandırmalarını istəyir.

## Körpə ölümləri ilə bağlı yayılan məlumatlar yalan çıxdı

**İyulun 3-də elektrik enerjisinin verilişində yaranmış məhdudiyyətlərdən sonra doğum evlərində ağır vəziyyətdə küvəsdə saxlanılan 100 körpənin ölməsi ilə bağlı mətbuatda və sosial şəbəkələrdə məlumatlar yayılıb. Xəbərlərdə deyilir ki, enerji verilişi dayandırılandan sonra süni nəfəs aparatına qoşulmuş körpələr ölüb.**

Səhiyyə Nazirliyi mətbuat xidmətinin mütəxəssisi Səfayə Əhmədova virtualaz.org-a deyib ki, məlumat yalandır. Elektrik enerjisinin verilişində məhdudiyyətlər yarandığı andan tibb müəssisələrində generatorlar avtomatik işə düşüb. Ayrıca dünən gecə körpə ölümü qeydə alınmayıb. "Hətta bir körpə ölümünü belə gizlətmək mümkün deyil", -nazirlik əməkdaşı qeyd edib.

Yayılmış xəbərlərə əlavə edilmiş videogörüntüyə gəlincə, qeyd edək ki, o, illər əvvəl rayon xəstəxanalarının birində lentə alınıb.

YENİ MÜSAVAT
N 142 (7031) 4 iyul 2018

**Son günlər ölkədə təbii qazın tərkibi ilə bağlı məsələ yenidən gündəmə gəlib. Belə ki, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) vitse-prezidenti İbrahim Quliyev Azərbaycanda əhaliyə verilən məişət qazının tərkibi barədə xəbərdarlıq edib.**

# MEA-nın vitse-prezidentinə sərt ittiham

## Ekspert: "Məqalədə qeyd olunan fikirlər tamamilə cəfəngiyyatdan ibarətdir"

İ.Quliyev bildirib ki, aparılan araşdırmalar nəticəsində əhaliyə verilən təbii məişət qazının tərkibində müvafiq normativ sənədlərin tələblərinə uyğun olmayan, yanmayan qaz qarışıqlarının, eləcə də ağır karbohidrogen qatışıqlarının olması aşkarlanıb: "SOCAR-ın tabeliyində olan qurumlara məxsus qazpaylama stansiyalarında təbii qazın təmizlənməsi, tənzimlənməsi və paylanması məqsədi ilə istismarda olan qurğu və avadanlıqların bəzilərinin köhnə olması, müasir tələbələrə cavab verməməsi halları üzə çıxıb. Baş verə biləcək bədbəxt hadisələrin qarşısının alınması üçün müəyyən tədbirlər həyata keçirilməsinə baxmayaraq, qaz sızması ilə əlaqədar partlayış (yanğın) hadisələrinin, eləcə də çoxsaylı ölümlə nəticələnən dəm qazından zəhərlənmə hallarının baş verməsi hələ də davam etməkdədir".




**Lakin İ. Quliyevin açıqlanması birmənalı qaşılanmayıb. Onun bu fikirlərini təxribat kimi xarakterizə edənlər də var.**

**Məsələ ilə bağlı rəsmi münasibət almaq üçün öncə "Azəriqaz" İstehsalat Birliyi ilə əlaqə saxladıq. Qurumun mətbuat xidmətinin rəhbəri İbrahim Kərbalayev "Yeni Müsavat"a bildirdi ki, qazın tərkibində heç bir zərərli maddə yoxdur:**

"Bizim qurumun işi qazı paylamaqdır. Qazın tərkibi ilə bağlı suallara SOCAR cavab verir. Ancaq mən də onu qeyd edim ki, qazın tərkibində hər hansı bir zərərli maddə yoxdur. Qaz laboratoriyada yoxlanılır və daha sonra əhaliyə paylanılır. Yoxlama zamanı isə hər hansı yad maddə aşkar edilməyib".

**Məsələ ilə bağlı SOCAR-dan isə bildirildi ki, qazpaylayıcı qurğuların hamısı yenidir:** "Bu qurğular heç də köhnə deyil. Hamısı son dövrlərdə yenilənib və müasir standartlara cavab verir".

**Ekspert Nüsrət Qasımov da "Yeni Müsavat"a bildirdi ki, İbrahim Quliyevin açıqlaması cəfəngiyyatdır:** "İbrahim Quliyev konkret olaraq ağlına gələni yazıb. Həmin məqaləni oxudum və gördüm ki, qazın tərkibi ilə bağlı həqiqətə uyğun olan bir cümlə yoxdur. Bu gün dünyada ən təmiz qaz Azərbaycanda çıxır. Azərbaycan qazının 94-96 faizi metandan ibarətdir. Metan da karbohidrogenlərin sırasının elementlərindən ibarətdir. Metan, etan, propan, butan kimi maddələrin hamısı yanan maddədir. Metandan butana və daha aşağı getdikcə, istilik vermə əmsalı artır. Eyni zamanda yanma qabiliyyəti, partlayış həddi də yüksəkdir. Əgər bir otağa 4.3 faiz metan yığılırsa, bu zaman partlayış həddi yaranır. Ancaq propana gəlincə isə bu yanan maddə 2.5 faizdə artıq partlayış həddinə çatır. İndi İbrahim Quliyev necə bu cür məsuliyyətsiz məqalə yaza bilər? Bilinmir ki, onun yazdığı məqalə təxribat xarakteri daşıyır, yoxsa başqa məqsəd var. Açıqlasın görək qazın tərkibinə yanmayan maddələri kim vurur? Kimdir bu əhalini aldadıb, dövlətə qarşı təxribat edən? Bütün bu suallara cavab versə, məsələ aydın olar. Əks halda, bütün bunlar təxribata bənzəyir. Necə bu cür məsuliyyətsiz yanaşma ortaya qoymaq olar? Əgər bizim qazın tərkibində yanmayan maddə varsa, o zaman gürcülər, bolqarlar, yunanlar, iranlılar, avropalılar nə üçün qazımızı alırlar? Bəyəm onların qazla bağlı məlumatları yoxdur? Bütün bunları nəzərə aldıqda məsələyə çox yanlış formada yanaşma olduğunu görürük. Onun bu fikirlərini qəti şəkildə təsdiq etmirəm. Oxucularda yanlış fikir yarana bilər ki, mən məmur olduğum, dövlətə işlədiyim üçün bu cür açıqlama verirəm. Xeyr, hazırda mən nə məmuram, nə də dövlətdə işləyirəm. Sadəcə olaraq, kimyadan anlayışı olan adam kimi, qaz işçisi kimi deyirəm ki, bu məqalə doğru deyil. Əgər İbrahim Quliyevin əlində dəqiq faktlar varsa, açıqlasın ki, doğrudan da qazın tərkibinə filan maddəni vururlar".

**Ekspert bildirib ki, SOCAR-ın aparatlarında problem olarsa, o zaman xaricə qaz satışını həyata keçirə bilmərik:** "Yaxşı, deyildiyi kimi problem varsa, bəs biz qazı hansı aparatla yoxlayıb, necə dünyaya satırıq? Satıcının tərəzisi olduğu kimi SOCAR-da da müəyyən aparatlar var ki, qaz orada yoxlanılır. Yeni xətti açıb, xaricə qaz satmırıq. Onun bu fikirlərində də yanlışlar var. Bu fikirləri də məsuliyyətsiz və təxribat xarakterlidir. Çünki əgər qaz xarab olsa, içərisində yanmayan maddə olsa istehlakçılar bunu dərhal bilərlər. Deyim ki, bizdən qaz alan ölkələr özləri də qazın tərkibini yoxlayırlar. Bizdə aparat yoxdursa, onlar yoxlayan zaman problemlər ortaya çıxar və məsələ qaldırıb, buruqların hamısını bağlayarlar. Necə qaz yanmır ki, hər kəs bütün günü qaz işlədir. Lap əgər xarabdırsa, ölkədə 2 milyon yarım abonentdən heç olmasa 1000 nəfəri birdən zəhərlənməyib? Əgər qazın tərkibində zəhər varsa, indiyə qədər kütləvi zəhərlənmələr olardı. Adicə buradan da görünür ki, deyilən fikirlər, bütün arqumentlər cəfəngiyyatdır".

❑ **Əli Rəis,**
**"Yeni Müsavat"**

# Müxalifət QAT-ın birgə Qarabağ mitinqinə "hə" dedi

## Sabir Rüstəmxanlı: "Hakimiyyət bu mitinqdən qorxmamalıdır"

## Pənah Hüseyn: "Qarabağ məsələsində iqtidar-müxalifət anlayışı olmamalıdır"

**Xəbər verildiyi kimi, Qarabağ Azadlıq Təşkilatı ayın 21-də Qarabağ mitinqi keçirmək istəyir. Hazırlıq işlərini sürətləndirən QAT ölkə müxalifəti və iqtidarına birgə mitinq keçirmək üçün müraciət edib.**





Müsavat.com-un məlumatına görə, artıq siyasi, ictimai xadimlər, döyüşçülərə, o cümlədən İsa Qəmbər, Əli Kərimli, İsgəndər Həmidov, Cəmil Həsənli, Mirmahmud Mirəlioğlu, Fazil Mustafa, Hacı İlham Əliyev, Sabir Rüstəmxanlı, Tural Abbaslı, Sərdar Cəlaloğlu, Hacı İlqar İbrahimoğlu, Pənah Hüseyn, Firidun Məmmədov, Vaqif Əlisoy, Arif Paşa, Aydın Şükürov, Əli Əliyev, Rövşən Əhmədli, İxtiyar Şirin, Əvəz Zeynallı, Qurban Cəbrayıl, İqbal Ağazadə, Rizvan Talıbov, Sülhəddin Əkbər, Elşad Musayev, Natiq Cəfərli, Qubad İbadoğlu, Tahir Abbaslı, Füzuli Rzaquliyev və digərlərinə müraciət edilib, ilkin razılaşma əldə olunub.

Eyni zamanda Yeni Azərbaycan Partiyasının icra katibi Əli Əhmədova məktub göndərilib.

QAT-ın bu təşəbbüsü ictimaiyyət tərəfindən dəstəklənməkdədir. İndiki vaxtda ümummilli problemlə əlaqədar iqtidar-müxalifət birliyinə böyük ehtiyacın olduğu göz önündədir. QAT-ın bu müraciəti hər iki düşərgə tərəfindən qəbul olunarsa, bunun uzun illərdir aralarına düşmənçilik toxumu səpilən iqtidar-müxalifət münasibətlərində milli barışıq mühitinin yarana biləcəyi vurğulanır.

**QAT sədri Akif Nağı birliyə nail olmağın çətinliyini anladıqlarını bildirdi:** "Qarabağın işğaldan azad olunması üçün ən vacib şərt milli birliklə bağlıdır. Biz də ona çalışırıq. Müxalifət nümayəndələrinin hamısına telefonla müraciət etmişik danışmışıq. YAP-dan Siyavuş Novruzovla və ya başqası ilə əlaqə saxlamağa cəhd göstərdik, telefonu açmadılar. Ona görə də YAP icra katibi Əli Əhmədova rəsmi məktub yazıb poçtla göndərdik. Bilirik ki, birliyə nail olmaq çətin məsələdir, amma yorulmadan buna çalışmalıyıq, hər kəs çalışmalıdır. Ümid edirik ki, nəticə olacaq. Bir daha vurğulayıram ki, Qarabağ mitinqi və ya hər hansı bir digər tədbirin keçirilməsi hansısa tərəfin ittiham olunması üçün edilmir, bunun bir xeyri də yoxdur. Məqsədimiz Qarabağla bağlı tələbin, Qarabağın dərhal işğaldan azad olunması tələbinin ümummilli vahid iradə kimi bütün dünya, beynəlxalq təşkilatlar qarşısında nümayiş etdirilməsidir"

**VHP sədri, xalq şairi Sabir Rüstəmxanlı mitinqin uyğunsuz vaxta salındığını söylədi:** "Yayın ortası, çox isti vaxta mitinq salınıb. Şəxsən mən həmin vaxt ölkədə olmayacam. Hər halda, bu mitinqi payızda da etmək olar. İyulun 4-də mitinqlə bağlı QAT-da tədbir olacaq. Fikirlərimi deyəcəm. Hesab edirəm ki, Qarabağ məsələsində ayrı-seçkilik qoymadan müxalifətlə iqtidar birlikdə mitinq keçirə bilər. Dünya ictimaiyyəti görməlidir ki, Azərbaycandan olan məcburi köçkünlər öz torpaqlarına qayıtmaq istəyirlər, bu ölkənin müxalifəti və iqtidarı bu məsələdə birlikdədir. Azərbaycan xalqının iradəsini hər kəs hiss etməlidir. Hakimiyyət bu mitinqdən qorxmamalıdır. Guya Qarabağ məsələsi ilə bağlı 50-100 min insan bir yerə toplaşsa, hakimiyyəti yıxmaq üçün toplaşacaqlar? Qarabağla bağlı belə bir ümummilli mitinq keçirmək olar. Dünya, ölkə mətbuatını bu məsələyə cəlb etməklə mitinq keçirmək daha vacibdir. Hakimiyyətin o zaman əli də uzana bilər ki, millətimin qarşısında dayana bilmirəm, bu münaqişə həll olunmalıdır".

**AXP sədri Pənah Hüseyn müraciətlə hələ ki tanış olmadığını qeyd etdi:** "Akif bəy zəng edib xəbər verdi. Onların qərargahında bununla bağlı toplantı olacaq. İştirak edəcəm və fikirlərimi deyəcəm. Prinsip etibarı ilə Qarabağ məsələsində ictimaiyyətin səfərbər olunması ilə torpaqlarımızın azad olunacağı qənaətindəyəm. Bunun hansı formada olacağı yəqin müzakirə ediləcək. Mitinqin iqtidar və müxalifətin birgə mitinqi kimi qələmə verilməsi təşəbbüskarların işidir. Yanaşmalarını yəqin izah edərlər. Dəfələrlə bizlər bildirmişik ki, Qarabağ məsələsində iqtidar-müxalifət anlayışı olmamalıdır. Çünki bu hər iki tərəfin milli problemidir".

**Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafa Qarabağ məsələsinin hamımızı narahat etdiyini bildirdi:** "Burada hər hansı bir fərq qoymaq doğru deyil. İqtidar və müxalifət təmsilçiləri bu məsələdə öz həssaslığını ortaya qoymalıdır. Bu baxımdan belə bir müraciəti normal qəbul edirəm. Birlikdə mitinq keçirmək mümkündür. Hətta bu zəruridir. Çalışmalıyıq ki, bu mitinq baş tutsun. Buna hər hansı bir maneçilik yaradılmamalıdır ki, normal bir iradə ortaya qoymaq mümkün olsun. Açığı, belə bir mitinq olarsa, bunun iqtidar və müxalifəti bir araya gətirəcəyini düşünmürəm. Çünki maraqlar fərqli olan yerdə həmrəylik, birlik davamlı olmur. Hər halda, Qarabağ məsələsi bir qədər fərqlidir və bu məsələdə bir araya gəlmək mümkün ola bilər".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 142 (7031) 4 iyul 2018

# 3 iyul qaranlığından sonrakı axşam - yenə işıqlar söndü

**İyulun 2-dən 3-nə keçən gecə saat 00.20 radələrində Azərbaycanın enerji təchizatı sistemində böyük qəza yaşanıb. Mingəçevir İstilik Elektrik Stansiyasının 6-cı blokunda yaranan problem bütün ölkənin enerji təchizatı sistemində açılmalara səbəb olub.**

Məsələ ilə bağlı Energetika Nazirliyi və "Azərenerji" ASC-nin ilkin birgə məlumatından aydın olur ki, qəza havaların kəskin isti keçməsi ilə əlaqədar olaraq elektrik enerjisinə tələbatın kəskin şəkildə artması (təqribən 40 faiz) üzündən baş verib.

Qəza ilə bağlı müvafiq dövlət strukturlarından operativ əməliyyat qrupu formalaşdırılıb.

Fövqəladə Hallar Nazirliyinin Mingəçevir və ətraf rayonlardan olan yanğından mühafizə hissələri hadisə yerinə cəlb olunub, yanğın söndürülüb.

Gecə saat 01.50-dən etibarən ölkə ərazisinə tədricən elektrik enerjisinin verilişi bərpa olunmağa başlayıb. Bunun üçün Rusiya və Gürcüstandan enerji mübadiləsi təmin edilib.

APA-nın xəbərinə görə, "Gürcüstan Dövlət Elektrosistemi" Səhmdar Cəmiyyətinin məlumatında Mingəçevir İES-də baş vermiş qəzadan sonra Gürcüstanın Azərbaycana elektrik enerjisinin ixracına başladığı qeyd olunub. Qonşu ölkədən Azərbaycana elektrik enerjisinin ötürülmə gücü hazırda 57-60 MVt təşkil edir.

### Nazir və nazirlikdən açıqlama

"Təşvişə, narahatlığa heç bir əsas yoxdur". Bunu qəzadan az sonra fövqəladə hallar naziri Kəmaləddin Heydərov deyib. Onun APA-ya verdiyi məlumatda dərhal hadisə yerinə yanğınsöndürmə texnikası və canlı qüvvə cəlb edildiyi, yanğının 20 dəqiqə ərzində söndürüldüyü qeyd olunub. Nazir deyib ki, ölkə ərazisində elektrik enerjisinin verilişi mərhələli şəkildə bərpa ediləcək: "Təşvişə, narahatlığa heç bir əsas yoxdur".

FHN-nin baş vermiş qəza haqqında rəsmi məlumatında isə qeyd edilir ki, 03 iyul 2108-ci il saat 00:20-də Mingəçevir şəhərində yerləşən "Azərbaycan İstilik Elektrik Stansiyası" MMC-nin açıq paylayıcı qurğular stansiyasının transformatorunda və 6-cı enerji blokunda yanğınla nəticələnən partlayış hadisəsi baş verib: "Obyektin əhəmiyyəti nəzərə alınaraq yanğının söndürülməsi üçün "3 saylı çağırış" elan olunub, 11 yanğınsöndürmə texnikası və 50 nəfərdən çox şəxsi heyət cəlb edilib. Açıq paylayıcı qurğular stansiyasında transformatorda baş verən yanğın saat 00:52-də, 6-cı enerji blokunun qazanxana qurğusundakı yanğın isə saat 01:10-da yanğın bölmələri tərəfindən söndürülüb. Stansiyanın turbinləri və digər qurğular yanğından mühafizə olunub. Yanğın zamanı xəsarət alan olmayıb".



# President enerji qəzasını araşdırmağı xüsusi komissiyaya tapşırdı

## Dövlət başçısı İlham Əliyev baş vermiş hadisənin səbəblərinin araşdırılması və təqsirkar şəxslərin müəyyən edilərək məsuliyyətə cəlb edilməsi üçün göstəriş verdi; ölkənin bütün strukturları Mingəçevir İES-də baş vermiş qəzadan sonra yaranmış problemləri aradan qaldırmağa cəlb olunub

Baş nazirin müavini Yaqub Eyyubov və "Azərenerji" ASC-nin prezidenti E.Pirverdiyev iyulun 3-də səhər saatlarında Mingəçevirə gediblər. APA-nın məlumatına görə, onlar yanğın baş vermiş Mingəçevir İES-ə baş çəkiblər. Y. Eyyubov qəzanın fəsadlarının aradan qaldırılması istiqamətində müvafiq tapşırıqlar verib.

### Su təchizatında problemlər

Elektrik enerjisinin kəsintisi bütün ölkə boyu su təchizatına mənfi təsir göstərib. "Azərsu" ASC-nin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi Anar Cəbrayıllının sözlərinə görə, elektrik enerjisinin kəsilməsi ilə əlaqədar bütün su təmizləyici qurğuların fəaliyyəti dayanıb: "Bildiyiniz kimi, Oğuz-Qəbələ su kəmərində quyulardan su çıxarılır və nasoslar elektrik enerjisinin köməyi ilə işləyir. Deməkolar ki, şəhərdaxili nasos stansiyalarında iş dayanmışdı. Artıq biz Ceyranbatan su təmizləyici qurğusunu qoşmuşuq. Kür su təmizləyici stansiyasının fəaliyyət bərpa olunub, qismən gücü ilə işləyir və artıq onun gücünü artırırıq. Tezliklə Oğuz-Qəbələ su kəmərində qoşulmanı planlaşdırırıq. Ona görə də hazırda şəhərin böyük hissəsində su təchizatında problemlər mövcuddur. Bilirsiniz ki, Mingəçevirdə elektrik enerjisi qoşularkən qısa müddət ərzində, 3 saniyə ərzində Bakıda elektrik enerjisinin verilişi bərpa olunur. Amma suyu Kürdən Bakıya gətirmək üçün boruların doldurulması ən azı 12-14 saat vaxt aparır. Buna görə də gün ərzində su təchizatında problemlər yaşanacaq".

### Metropoliten əsas "zərərçəkənlərdən" biridir

Qəza Bakı Metropoliteninin fəaliyyətində problemlər yaradıb. Qurumun mətbuat xidmətinin rəhbəri Bəxtiyar Məmmədovun "Yeni Müsavat"a verdiyi məlumata görə, enerji təchizatı dayandığı üçün tunellərdə qalan qatarlardakı sərnişinlər mobil qüvvələr tərəfindən çıxarılıb: "Gecə saat 24.00-da metrostansiyalarına giriş dayandırılsa da, içəridə olan sərnişinləri mənzilbaşına çatdırırıq. Enerji təchizatı dayanan zaman Metropolitendə operativ qruplar yaradıldı, tunellərdə qalan az sayda sərnişinlər tez bir zamanda çıxarıldı".

Enerji verilişi bərpa edildiyinə görə səhər saat 06.00-radələrindən Metropolitenin "Yaşıl" və "Qırmızı" xətlərində hərəkət tam təmin olunub. Problem yalnız Bənövşəyi xəttin "Avtovağzal" və "Memar Əcəmi" stansiyalarında yaranıb. B.Məmmədovun sözlərinə görə, bununla əlaqədar, Bakı Nəqliyyyat Agentliyi Sumqayıt və ətraf ərazilərdən Beynəlxalq Avtovağzal Kompleksinə gələn marşrut xətləri üzrə avtobusların, müvəqqəti olaraq, metronun "İnşaatçılar", "Memar Əcəmi" və "Nizami" stansiyalarına hərəkətini təşkil edib.

08.32-dən etibarən "Avtovağzal-Memar Əcəmi" stansiyaları arasında qatarların hərəkəti təmin edilib, problem aradan qaldırılıb.

### SOCAR-ın quru yataqlarında iş bərpa olunub

"Respublikanın energetika sistemində yaranmış çətinliklərlə əlaqədar olaraq SOCAR-ın quru mədənlərində iş rejimi müvəqqəti olaraq pozulub".

Bu barədə "Report"a SOCAR-dan bildirilib.

Şirkətdən APA-ya verilən məlumata görə isə Qaz İxrac İdarəsinin Kompressor stansiyalarının, Neft Emalı Zavodu, "Azərikimya" İB-nin müəssisələri, Qaz Emalı Zavodunda elektrik enerjisinin kəsilməsi nəticəsində müəssisələrin fəaliyyəti qəza rejimində dayandırılıb: "Səhərə yaxın elektrik enerjisinin təchizatı bərpa olunduqdan sonra Qaz anbarları, Qaz İxrac İdarəsinin Kompressor stansiyaları, NEZ və "Azərikimya" İB-nin müəssisələrinin bütün qurğuları tədricən işə salınıb. Hazırda SOCAR-ın müəssisələrinin iş rejimi normal vəziyyətdə davam edir".

### Ordunun enerji təchizatında problem yoxdur

Azərbaycan Ordusunun hərbi hissələrində və ön xətt bölmələrində elektrik enerjisinin təchizatı ilə bağlı problem yoxdur. Bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, hərbi infrastrukturun fəaliyyətinin tam şəkildə təmin edilməsi məqsədilə Müdafiə Nazirliyinin bütün hərbi hissələri, hərbi tibb müəssisələri, maddi-texniki təminat, rabitə, kəşfiyyat bölmələri, o cümlədən xüsusi təyinatlı hərbi təhsil müəssisələri və digər hərbi obyektləri xüsusi rejimdə fəaliyyət göstərən ehtiyat enerji mənbələri ilə təchiz edilib. Elektrik enerjisinin verilişində hər hansı problem yarandıqda həmin enerji mənbələri avtomatik rejimdə işə düşür. Srağagün gecədən elektrik enerjisinin verilməsi müvəqqəti dayandırılan kimi bu enerji mənbələri avtomatik işə düşüb və hazırda Ordumuzun bütün hərbi hissələrində, xüsusilə ön xətt bölmələrində elektrik enerjisinin təchizatı ilə bağlı problem yoxdur.

### Gəncə-İstanbul aviareysi 40 dəqiqə gecikib

İyulun 3-də saat 08:20-də "Türk Hava Yolları" şirkətinin həyata keçirməli olduğu 0338 nömrəli Gəncə-İstanbul reysi 40 dəqiqə gecikmə ilə baş tutub.

"Report" xəbər verir ki, buna səbəb ölkədə elektrik enerjisinin verilməsində yaranmış problem olub.

Həmin problemə görə həm də "Buta Airways"in Bakı-Moskva aviareysi və ardınca Moskva-Gəncə aviareysini 12 saat gecikib.

Maraqlıdır ki, enerji təchizatı kəsilən zaman stasionar rabitədə problemlər meydana çıxmışdı. Lakin Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin yaydığı açıqlamada ölkənin bütün ərazisində telekommunikasiya təchizatının dayanıqlığı təmin olunduğu bildirilir: "Əlavə enerji qurğularının işə salınması nəticəsində ölkə ərazisində sabit və mobil telefon rabitəsi, internet, poçt, televiziya və radio yayımının fasiləsizliyi tam təmin edilib".

"Bakcell" və "Azercell"dən "Yeni Müsavat"a verilən məlumata görə isə enerji təchizatındakı problemə görə ölkənin bir neçə bölgəsində yerləşən mobil baza stansiyalarının elektrik təchizatında fasilələr yaranıb. Hər iki şirkət fasilələrin aradan qaldırılması üçün tədbirlərin görüldüyünü bildirməklə yanaşı, ölkə üzrə enerji təchizatı tam təmin olunanadək problemlərin yaranmasını istisna etmir.

### Prezident komissiya yaratdı

Prezident İlham Əliyev "Azərbaycan İstilik Elektrik Stansiyası" MMC-nin yarımstansiyalarından birində baş vermiş qəza ilə əlaqədar Dövlət Komissiyasının yaradılması haqqında sərəncam imzalayıb.

"Yeni Müsavat"ın məlumatına görə, sərəncamda qeyd olunur ki, qəza nəticəsində Bakı və Gəncə şəhərləri də daxil olmaqla, respublikanın 39 şəhər və rayonunun elektrik enerjisi ilə təminatında fasilə yaranıb.

Prezident qəza ilə əlaqədar Baş nazirin birinci müavini Yaqub Eyyubovun rəhbərliyi altında Dövlət Komissiyasının yaradılmasına qərar verib.

Energetika naziri Komissiya sədrinin müavini, daxili işlər, fövqəladə hallar nazirləri, Baş prokuror, Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, "Azərenerji", "Azərişıq" sədrləri, Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı və AMEA Fizika İnstitutunun direktoru üzvləri təyin edilib.

Dövlət Komissiyası hadisənin baş verməsi səbəblərini araşdıraraq bu barədə prezidentə məlumat verməli, qəzanın nəticələrinin aradan qaldırılması üçün təxirəsalınmaz tədbirlər müəyyənləşdirərək həyata keçirməlidir.

Prezident həmçinin Baş Prokurorluğa baş vermiş hadisənin səbəblərinin araşdırılması və təqsirkar şəxslərin müəyyən edilərək məsuliyyətə cəlb edilməsi üçün Daxili İşlər və Fövqəladə Hallar nazirlikləri ilə birlikdə təxirəsalınmaz istintaq tədbirlərini həyata keçirməyi tapşırıb.

### Ölkə üzrə enerji təchizatı tam bərpa olunacaq

"Azərişıq" ASC Mətbuat xidmətinin rəhbəri Tanrıverdi Mustafayevin dünən günortadan sonra "Yeni Müsavat"a verdiyi məlumatda Bakı şəhərində enerji təchizatının 100 faiz, regionlarda isə 80 faiz təmin olunduğu bildirilir.

Lakin yerlərdən aldığımız məlumatlarda ölkənin Cənub və Qərb bölgələrində rayon mərkəzləri, böyük qəsəbə və kəndlər istisna olmaqla, kəndlərin əksəriyyətinin də hələ işıqsız qaldığı qeyd edilir.

Bundan əlavə, Bakı və Sumqayıt şəhərlərindəki iri müəssisələrin bir çoxuna enerji verilişi bərpa olunmayıb. Günorta saatlarından Bakının Nizami, Sabunçu rayonlarının ərazisində yenidən enerji təchizatı dayandırılıb.

"Azərenerji" ASC-nin mətbuat xidmətinin rəhbəri Yəhya Babanlı isə APA-ya bildirib ki, qəza baş verən İES-in enerji blokundan biri təlimata uyğun olaraq işə düşüb. Onun sözlərinə görə, ikinci enerji blokunun fəaliyyətə başlaması üçün start vəziyyətinə gətirilib: "Ölkənin elektrik enerjisi ilə təchizatı 90 faiz bərpa edilib. Günün sonunda elektrik enerjisinin verilişi 100 faiz bərpa olunacaq".

### Ölkə yenə qaranlıqda

Dünən saat 18:30 radələrində Bakıda və ölkənin əksər rayonları yenidən işıqsız qalıb. Ən kritik vəziyyət Bakı Metropolitenində yaranıb. Belə ki, iş gününün sonu olduğu üçün on minlərlə adam metro tunellərində qatarda qalıb. Özünü pis hiss edən xeyli insanı ambulanslarla təcili yardım məntəqələrinə aparıblar. Qəzet çapa gedərkən işıqlar hələ də bərpa edilməmişdi.

❑ Dünya SAKİT,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 142 (7031) 4 iyul 2018

# Fəlakət gecəsi qaranlıqda kəşf olunan gerçəklər ... - Rauf Arifoğlunun yazısı



**İyulun 2-dən 3-nə keçən gecə ölkəmiz nadir rastlanan fəlakət yaşadı. Bir düşmən bir ölkəni vursa, ancaq belə vura bilərdi... Amma Azərbaycanı düşmən yox, isti vurmuşdu.**

Ən azından, sonradan verilən rəsmi açıqlamalara görə beləydi.

Ölkəmiz yenicə qürurverici olayları yaşamışdı, paytaxtımızın baş meydanından şərəfli ordumuzun keçidini heyranlıq və şükranlıqla izləmişdik. Dost və düşmənlərimiz dövlətimizin qüdrətini görüb, qəbullanmışdılar.

Ermənilər və onların içimizdəki uzantıları narahat olmuşdular...

Belə bir zamanda ölkə texniki bir səbəbdən qaranlığa qərq oldu və Azərbaycan işıqsız qaldı.

Mən çox narahatam; hər nə səbəbdən baş versə də, bu, yaxşı hal deyil; belə olmamalıydı; belə olmaya bilərdi; xüsusilə ona görə narahatam ki, bu, sanki hansısa güclərin o möhtəşəm paraddan sonra Azərbaycana mesajı idi...

****

Məsələnin müsbət tərəfi odur ki, bu boyda miqyaslı fəlakət ölkədə böyük panikaya səbəb olmadı. Müvafiq strukturlar və bütövlükdə dövlət prosesin gedişatını tez topar-ladı; Prezidentin adından açıqlama yayıldı, fövqəladə hallar naziri xalqı sakitliyə çağırdı, polis paytaxtı nəzarətə götürdü, hətta svetaforların funksiyasını canlı olaraq icraya başladı; digər strukturlar çevik və soyuqqanlı çalışb, ölkəni vəziyyətdən çıxartdılar.

****

İki mühüm amili qeyd etməliyim.

Nyu-mediya və sosial şəbəkələr.

Ölkədəki sakitliyin əsas səbəbkarı və fövqəladə halda etibarlı xəbərləşmə məkanı saytlar və sosial şəbəkələr - əsasən də facebook oldu. Dövlət adamlarının gecənin qaranlığına yaydıqları rəsmi açıqlamalar da bu platformalarda işıq üzü gördü...

****

Həmin platformalardan biri, bəlkə də birincilərdən biri də musavat.com idi...

Olay baş verməzdən az öncəydi. Saytımızın rəhbəri Xalid hoca vatsap qrupunda Turan Oruca son tapşırıqları verib, yatmağa getmişdi, deməşdi, elə et, növbəni bitirəndən sonra da xəbərlər olsun, “avtopilot” deyirik buna zarafatla...

Nə biləydi ki, Turanın bu gecə növbəsi heç bitməyəcəkdi...

Mən köyümdə, Yuxarı Öysüzlüdə idim (*xəstə ziyarəti üçün buradayam*).

Belçika-Yaponiya oyununun və istinin təsirlərini yenicə atıb, anam, bacım və doğmalarımla söhbətləşirdim. Bir əlim də telefonda, gözüm saytda və feysdə...

****

İşıqlar bu dəfə qəribə söndü - sanki qəfildən öldü, işıq...

Qrupa ilk yazan Azər Ayxan oldu - “Əhmədlidə işıqlar közərdi, kəsildi. Xəbər yazın”.

Sonra Ilkin Muradov yazdı. Sonra Gulnar Suleymanova. Sonra başqaları...

Məlum oldu ki, miqyas böyükdür.

İki dəqiqə sonra Tanrıverdi Mustafayevə zəng etdim...

Bundan beləsi musavat.com-da ən çox oxunan xəbər oldu...

****

Telefonla kompütərə internet verib, özüm işə başladım. Texniki imkanlarım Bakıdakı növbətçilərdən yaxşı idi (*gecə növbəsi redaksiyadan yox, evdən işləyir*).

Generatoru qoşduq, Bakıda xətdə olan əməkdaşlar, kənddə mən...

Qaranlığı aydınladan new-media...

Mobilləşmənin gücü də bundadı! Məkan fərq etməz! Kiçik bir imkanla bir dövləti belə qurtara bilir, media və mobilləşmə! Necə ki, 2016-cı ildə, iyulda Türkiyədə xain çevriliş olanda, məhz belə oldu. Dövləti də, iqtidarı da media və mobilləşmə xilas etdi.

****

Özümü dedim, “APA bacı”yı da deyim.

Vüsalə Mahirqızı əla işlədi. Bir daha mən bu xanımın peşəkarlığına və iş sürətinə şahid və heyran oldum. Sabaha kimi xətdə qaldı, yazdı, ölkənin xəbər məkanı və vətəndaşlar üçün dəyərli bilgilər hazırladı, yaydı. Bir-birimizlə mobil rabitədə qala-qala, o durum bitənə qədər işlədik. Sonra da bir-birimizi tərifləyib (bunu başqası onsuz da etməyəcəkdi), “sabahın xeyir”, deyib, növbəni təhvil verdik əməkdaşlara...

****

Kaş ki, bir daha ölkəmizi gün (və ya düşmən) bu cür vurmaya, vura bilməyə. Biz də fövqəladə rejimdə çalışıb, yeni medainın və mobilləşmənin necə bir güc olduğunu sübut etmək zorunda qalmayaq.

Dövlətin müvafiq strukturları və ölkə rəhbərliyi, əminəm ki, yaranmış vəziyyəti təhlil edib, onu düzəldəcək.

Zəif yerimiz çox şükür, az itkilərlə, bilindi.

Onu güclü yerə çevirək.

İşığımız kəsilməsin...

Qaranlığa düşməyək...

# Müdafiə sənayesi naziri postuna şanslı namizədlərin adı bilindi

## Yeni nazir mərhum Yavər Camalovun dövründə müavini işləyənlərdən biri ola bilər



Tofiq Rəfiyev

**Müdafiə sənayesi naziri Yavər Camalovun vəfatından sonra onun tutduğu vəzifəyə kimin təyinat alacağı müzakirə mövzusuna çevrilib. Ölkənin müdafiəsi üçün əhəmiyyət kəsb edən bir sahənin uzun müddət rəhbərsiz qalmayacağı ehtimal olunur.**

Yada salaq ki, Yavər Camalov 2006-cı ildə müdafiə sənayesi naziri postuna təyinat almışdı. O, bu təyinata qədər “Azneft” İstehsalat Birliyinin baş direktoru vəzifəsini tutmuşdu. Yavər Camalovun vəfatından sonra nazir postu Yəhya Musayevə həvalə olunub. O, müvəqqəti nazir səlahiyyətlərini icra edir.

Ümumilikdə, nazirlikdə 2 müavin postu var. Digər müavin Tofiq Rəfiyevdir.

Mərhum Yavər Camalovun tutduğu posta potensial namizədlər də məhz müavinləridir. Quruma kənardan, bu sahəyə bələd olmayan kadrın gətiriləcəyi ehtimalı azdır.

Media üzərindən apardığımız araşdırmalar zamanı Tofiq Rəfiyevin bioqrafiyası haqda bu məlumatlara rast gəldik.

1942-ci ildə Bakı şəhərində anadan olan Rəfiyev 1965-ci ildə Azərbaycan Dövlət Universitetini, 1969-cu ildə SSRİ Elmlər Akademiyasının A.İoffe adına Leninqrad Fizika-Texniki İnstitutunun aspiranturasını bitirib. 1961-1966-cı illərdə Azərbaycan Dövlət Universitetində radiotexnik, baş laborant, laboratoriya müdiri işləyib. 1970-1972-ci illərdə Fizika İnstitutunda laborant, mühəndis işləyib.

1972-1976-cı illərdə SSRİ HSK-nın “Azon” zavodunda böyük mühəndis, konstruktor, aparıcı mühəndis işləyib. 1981-1992-ci illərdə SSRİ HSK-nın Elektron Hesablayıcı Maşınlar, Bakı Radio və “Alunit” zavodlarında istehsalat şöbəsinin rəisi, xüsusi konstruktor bürosunun rəis müavini, baş mühəndis vəzifələrində işləyib. 1992-ci ildə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Müdafiə sənayesi idarəsində şöbə rəisi işləyib. 1992-2001-ci illərdə Azərbaycan ordusunda hərbi xidmətdə olub. 2001-2006-cı illərdə Azərbaycan Respublikası Dövlət Xüsusi Maşınqayırma və Konversiya Komitəsində sədr köməkçisi, şöbə müdiri işləyib. 2006-cı ildə Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyində şöbə müdiri işləyib. Azərbaycan Respublikası Prezidentinin 15 dekabr 2006-cı il tarixli Sərəncamı ilə müdafiə sənayesi nazirinin müavini təyin edilib. Azərbaycan Respublikası Prezidentinin 15 dekabr 2011-ci il tarixli Sərəncamı ilə “Əməkdar Dövlət Qulluqqcusu” fəxri adı verilib.



Yəhya Musayev

Yəhya Musayev də Rəfiyevlə eyni gündə nazir müavini postuna təyinat alıb. 1959-cu ildə Bakı şəhərində anadan olan Musayev 1983-cü ildə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu bitirib. 1979-1980-ci illərdə fəhlə işləyib. 1980-1982-ci illərdə “Azneftyoltikintitəmir” trestində mühəndis, iqtisadçı olub. 1982-1983-cü illərdə 26 Bakı komissarı adına Neftqazçıxarma İdarəsinin Tikinti Quraşdırma İdarəsində baş mühasib işləyib. 1983-1985-ci illərdə 26 Bakı komissarı adına Neftqazçıxarma İdarəsində baş mühasib vəzifəsində çalışıb. O, daha sonra 1985-1994-cü illərdə Ə.C.Əmirov adına Neftqazçıxarma İdarəsində baş mühasib işləyib. 1994-2003-cü illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Quruda Neft və Qazçıxarma İstehsalat Birliyində baş mühasib olub. 2003-2004-cü illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin “Azneft” İstehsalat Birliyində İqtisadiyyat-maliyyə və mühasibat uçotu idarəsinin rəisi işləyib.

2004-2006-cı illərdə Dövlət Neft Şirkətinin “Azneft” İstehsalat Birliyində baş direktorun müşaviri kimi fəaliyyətini davam etdirib. 2006-cı ildə müdafiə sənayesi nazirinin müavini təyin edilib.

Müdafiə sənayesi naziri postuna namizədlərdən biri kimi nazirliyin aparat rəhbəri olan Üzeyir İsmayılovun gətiriləcəyi xəbəri də yayılıb. Üzeyir İsmayılov Yavər Camalovun qardaşı Əlikram Camalovun kürəkənidir.

❑ **E.HÜSEYNOV**
**”Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 142 (7031) 4 iyul 2018

**Sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovun əmisi oğlu Vüqar Mahmudov DİN-in sabiq baş əməliyyat müvəkkili, mərhum Hacı Məmmədovun durumuna düşüb. 13 il əvvəl, 2005-ci ilin martında Hacı Məmmədov həbs ediləndən sonra MTN-in İstintaq Təcridxanasına salınmışdı. 2006-2007-ci illər ərzində Hacı Məmmədov və digərlərinin işi üzrə keçirilən məhkəmə prosesində o, yarımçıq ifadələr verməklə, digər təqsirləndirilən şəxslərin barəsində bir-birinə zidd ifadələr səsləndirməklə yaddaşlarda qalıb.**



# Eldar Mahmudova qarşı “Hacı Məmmədov taktikası”

## Vaxtilə qanqsteri MTN-də qanunsuz olaraq saxlayan general bəzi məmurları təhdid etməkdən çəkinmirdi, indi isə ən yaxın adamı...

Sonradan məlum oldu ki, Hacı Məmmədov məhkəmədə yalan ifadələr verməyə məcbur edilib. Konkret olaraq Zakir Nəsirovla bağlı hissədə doğru olmayanları dilə gətirib, bununla da generalın şərlənməsi, ömürlük həbsə alınması təmin olunub.

Eldar Mahmudov vəzifədən çıxarılandan az sonra Hacı Məmmədovun bacısı demişdi ki, qardaşını belə ifadələr verməyə məcbur ediblər. Barəsində məhkəmənin ömürlük azadlıqdan məhrumetmə cəzası çıxarılandan sonra onu MTN-də saxlamaqla daim nəzarətdə olması təmin olunub. Qanuna görə, ömürlük məhkumlar heç bir halda Qobustan həbsxanasından kənar saxlanıla bilməzdi. Qanun 11 il Eldar Mahmudovun şəxsi maraqlarına dirənib qalmışdı. Hacı Məmmədovu yalan ifadə verməyə məcbur edən Eldar Mahmudov onu faktiki olaraq şəxsi girovu kimi MTN-də saxlamışdı.

Eldar Mahmudov vəzifədə olduğu müddətcə ağlının ucundan belə keçirməmişdi ki bir situasiya ilə hazırda üz-üzədir. Köməkçisi, əmisi oğlu Vüqar Mahmudov Hacı Məmmədovun durumuna düşüb. Bir neçə gün əvvəl Bakı Hərbi Məhkəməsi Eldar Mahmudovun əmisi oğlu Vüqar Mahmudovun barəsində olan həbs-qətimkan tədbirinin vaxtını növbəti dəfə uzadıb. Baş tutan prosesdə istintaq orqanının təqdimatı üzrə qərar elan edilib. Qərara əsasən, Vüqar Mahmudovun barəsində seçilmiş həbs-qətimkan tədbiri daha 3 ay müddətinə uzadılıb.

Ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyi Antiterror Mərkəzinin şöbə rəisinin müavini vəzifəsində işləmiş və faktiki olaraq nazirin köməkçisi funksiyasını həyata keçirmiş Vüqar Mahmudova Cinayət Məcəlləsinin 179.3.1-ci (mütəşəkkil dəstə tərəfindən mənimsəmə və ya israf etmə), 179.3.2-ci (külli miqdarda mənimsəmə və israf etmə) və digər maddələri ilə ittiham elan olunub. Vüqar Mahmudovu ötən ilin noyabrında həbs edilib.

Eldar Mahmudovu və Vüqar Mahmudovu ayrı-ayrılıqda Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsinə bir neçə dəfə çağırdılar. Məlum oldu ki, hər ikisini “MTN işi”ndən ayrılan cinayət işi üzrə dindiriblər. Bu dindirmələr polkovnik-leytenant Vüqar Mahmudovun həbsi ilə sonunclanmışdı. Vüqar Mahmudov Eldar Mahmudovun əmisi oğlu olmaqla bərabər onun köməkçisi olaraq sahibkarlardan aylıq toplanan xəracın bank hesablarına yerləşdirilməsi ilə məşğul olan biri kimi ad çıxarıb.

Vüqar Mahmudovun gözlənilmədən həbsi, bunun ardınca isə sabiq nazirin işdən çıxarılandan sonra ilk dəfə olaraq istintaqa çağırılması belə əminlik yaratmışdı ki, tezliklə Eldar Mahmudov da həbsdə çarpışan komandasının yanına göndəriləcək. Alınmadı. 2017-ci ilin noyabrından ötən müddət ərzində bu əminlik öləziyib. Hələ də sabiq nazirin həbs olunacağı haqda iddialar var. Bu da səbəbsiz deyil. Çünki xeyli danılmaz faktlar ortalıqdadır.

Maraqlı bir məqam da o idi ki, Vüqar Mahmudovun da həbsinə qədər adı bir çox məhkəmə işlərində keçirdi. O, məhkəmələrə dəvət ediləndə özünü arxayın aparır, təkzibolunmaz faktlara baxmayaraq, yaxasını istintaqçıların əllərindən kənar saxlaya bilirdi. Belə görünürdü ki, onun arxayınlığı əmisi oğlunun əlaqələrinə köklənib. Bununla belə, həbs edilməməsi də ciddi suallar doğururdu. Bildirilirdi ki, Eldar Mahmudovu “qoruyan əllər” möhkəm olduğundan onun ən yaxın adamını da həbs etmək mümkün olmur. Lakin bir müddət keçdi, Vüqar Mahmudovun da yaxası istintaqçıların əlinə keçdi.

MTN-in az qala bütün rəhbərliyi, general heyəti həbs olunduğu halda Eldar Mahmudovun istintaqdan kənar qalması bu gün də çox ciddi suallar doğurur. Üstəlik, 2017-ci ilin iyununda MTN-in sabiq şöbə rəisi polkovnik Vüsal Ələkbərovun cinayət işi üzrə məhkəmə prosesi başa çatanda hakim Eldar Mahmudov və nazirliyin baş istintaq idarəsinin rəisi olmuş Mövlam Şıxəliyev barəsində cinayət işinin başlanması üçün zərərçəkmişlərin şikayəti əsasında prokurorluğa təqdimat göndərmişdi. Həmin qərardadın ili də çıxıb, bir mollası əskikdir...

Ötən ilin noyabrında Baş Prokurorluq təsdiq etmişdi ki, Eldar Mahmudovun istintaq idarəsinə çağırılması Vüqar Mahmudovun cinayət işi ilə bağlıdır. Hələ o dövrdə də bəlli idi ki, Eldar Mahmudovun istintaqa çağırılması, əmisi oğlunun həbsi bir müstəntiqin və ya bir idarənin qərar verəcəyi iş deyil. 11 il ölkənin ən strateji postlarından hesab olunan MTN-də rəhbər olub və onunla bağlı hətta işdən çıxarıldıqdan sonra da hər hansı bir qərar yenə hakimiyyətin ən üst düzəyindən verilib. Vüqar Mahmudovun həbsi ilə Eldar Mahmudovla bağlı proses dayandırıldı. Vüqar Mahmudov 7-ci aydır ki, həbsdədir. Ötən müddət ərzində onun barəsindəki həbs-qətimkan tədbirinin müddəti 2 dəfə artırılıb. Mümkündür ki, Vüqar Mahmudov barəsində qətimkan tədbiri maksimum müddətə - 1 il 6 aya qədər artırılacaq və sonradan məhkəmə qarşısına çıxarıla bilər.

Vüqar Mahmudovun həbsi ərəfəsində belə xəbərlər yayılmışdı ki, Eldar Mahmudov qudası, hazırda həbsdə olan Beynəlxalq Bankın sabiq rəhbəri Cahangir Hacıyevlə birgə ölkədən külli miqdarda vəsait çıxarıb və istintaqa çağırılandan sonra həmin pulları qaytarmağa söz verib. Cahangir Hacıyevin özü də “Beynəlxalq Bank işi” başlayandan bir neçə ay sonra azadlıqda qalıb. Həmin günlərdə də bunun səbəbi dövlət bankından oğurladıqları pulları qaytarmaq vədi ilə izah olunurdu. Amma pulun yalnız cüzi bir miqdarı qaytarıldı. Cahangir Hacıyevin də taleyi məlumdur. Onu 15 il müddətinə azadlıqdan məhrum ediblər. Eyni ssenarinin Eldar Mahmudova da münasibətdə təkrarlanacağı haqda fikirlər səslənsə də, ötən 3 il ərzində baş tutmur. Belə ehtimallar var ki, nazir vəzifəsində çalışdığı dövrdə əlində cəmlənən kompromat materialları hazırda 1 işarə ilə hərəkətə keçirmək iqtidarındadır. Əmisi oğlunu həbs etməklə onu daim nəzarətdə, gərginlikdə saxlayır, əl-qolu bağlanmış duruma gətiriblər.

Eldar Mahmudovun əlində ola biləcək kompromat “bomba”larının hansı gücdə olmasını, nələri dəyişə biləcəyini göz önünə gətirməkdə elə də çətinlik çəkmirlər. Görünən də odur ki, sabiq nazirin qurduğu kompromat “qalası”na onun özünün Hacı Məmmədova qarşı taktikası ilə “cavab” verirlər.

**❑ E.HÜSEYNOV, “Yeni Müsavat”**

# “AŞ PA-da artıq imitasiya xarakterli fəaliyyətlə məşğul olurlar”

## Elxan Süleymanov “Avropa Şurası Parlament Assambleyasının tragikomik qərarı və ya 14 nəfərin ”ömürlük cəza"sının anatomiyası haqqında" yazdı

**AVCİYA prezidenti, millət vəkili Elxan Süleymanov son vaxtlar AŞ PA-da Azərbaycan əleyhinə baş verənlər barədə məqalə yazıb. “Yeni Musavat” onun yazısını təqdim edir: “AŞ PA-nın Prosedur Qaydaları, Toxunulmazlıqlar və İnstitusional Məsələlər Komitəsi 14 nəfər deputatın Avropa Şurası və Parlament Assambleyasının binalarına daxil olmaq hüququndan ömürlük məhrum edilməsi barədə qərar qəbul etmişdir. Açığı, komitənin bu qərarı məni xeyli təəccübləndirdi. Qəbul edilmiş qərarın incəliklərinə və ya başqa sözlə detallarına varsanız, siz də xeyli təəccüblənəcəksiniz.**

Beləliklə,

**Birinci detal:** Prosedur Qaydaları Komitəsinin “Avropa Şurası və Parlament Assambleyasının binalarına daxil olmaq hüququndan ömürlük məhrum edilməsi” formasında “cəzalandırdığı” 14 nəfərdən heç biri AŞ-PA üzvü deyil, 11 nəfəri isə hazırda, ümumiyyətlə, heç bir siyasi fəaliyyətə malik deyillər.

**İkinci detal:** “Cəzalandırılan” şəxslərin əksəriyyəti keçmiş deputatlardır, artıq öz ölkələrində parlament üzvləri deyillər və aktiv siyasi-ictimai fəaliyyətlə məşğul olmurlar.

Təəccüblüdür, deyilmi? Əgər hansısa təşkilatın üzvü olmayan şəxsə həmin təşkilatın binasına daxil olmaq qadağan edilirsə, bu “qadağa”nı necə şərh etmək olar? Əgər həmin şəxs üstəlik təşkilata üzvlük statusu əldə etmək üçün heç bir şansı olmayan biridirsə, yəni öz ölkəsinin parlament üzvü deyilsə, onda necə? Bu, zənnimcə, vegetarianlar üçün ət yeməyə tətbiq edilən qadağanı xatırladır.

**Üçüncü detal:** Qərarda hər bir “cəzalandırılanla” bağlı “ömürlük məhrum edilməsi” ifadəsinə rast gəlinir.



Maraqlıdır, deyilmi? Məlumdur ki, hər hansı deputat AŞ PA-nın sessiya və komitə iclaslarında iştirak etmək məqsədi ilə Strasburqa səfər edirlər və bu səfər həmin deputatların milli parlamentləri tərəfindən maliyyələşdirilir.

Görəsən, artıq AŞ PA üzvü və öz ölkələrində milli parlamentlərin üzvü olmayan, aktiv fəaliyyətlə məşğul olmayan hansı insan öz təqaüdü hesabına Avropa Şurasına getmək istər? Belə ki, yuxarıda qeyd etdiyimiz kimi, “cəzalandırılmış” şəxslərdən bəziləri artıq 10 ildən artıqdır ki, deputat deyillər və siyasi fəaliyyətlərini dayandırıblar. Sual edilir: əgər onlar hər hansı AŞ PA üzvü ilə görüşmək istəsələr, həmin üzvün öz şəhərinə, ya fərqli bir Avropa paytaxtında, yaxud da elə Ştrasburqda bir kafedə görüşə bilməzlərmi? Bununla belə, ömrünün böyük hissəsini ictimai-siyasi fəaliyyətə həsr etmiş, artıq təqaüddə olan və həyatının ahıl dövrünü yaşayan insanların “ömürlük” “cəzalandırılması” nə dərəcədə Avropanın tez-tez səsləndirdiyi humanizm prinsipi ilə uzlaşır? Belə bir qərarın verilməsi daha çox sərsəm və tragikomik xarakter daşımırmı?

**Dördüncü detal:** Komitə tərəfindən “cəzalandırılan” şəxslərin siyahısına nəzər saldıqda, görünür ki, bu şəxslərin çoxu Azərbaycanın haqq səsini müdafiə edən, zaman-zaman Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə bağlı obyektiv fikirlər səsləndirən siyasətçilərdir. Zənnimcə, qərar verənlərin iç üzünü açmaq üçün daha bir detala diqqət yetirməliyik. Düşünürəm ki, bu məqam Avropa institutunun obyektivliyini birdəfəlik şübhə altına ala biləcək qədər ciddidir və qərar verənlərin iç üzünü açmış olur.

Nəhayət, sual edilir: AŞ PA öz üzvü olmayan, əsasən təqaüddə olan və şüurlu həyatının əsas hissəsini ictimai-siyasi fəaliyyətlə məşğul olmuş insanların “Avropa Şurası və Parlament Assambleyasının binalarına daxil olmaq hüququndan ömürlük məhrum edilməsi” barədə qərarı ilə nə demək istəyir? Bu o deməkdir deyilmi ki, AŞ PA-da artıq real işlərlə deyil, imitasiya xarakterli fəaliyyətlə məşğul olurlar.

Sonda Prosedur Qaydaları Komitəsinin qəbul etdiyi qərarın haradan qaynaqlanması ilə tanış olmaq üçün sizi 12 iyun tarixli “AŞ PA Azərbaycanı yenidən siyasi poliqona çevirmək istəyir” və 19 iyun tarixli “Nə üçün Müstəqil Kənar İstintaq Orqanı ilə əməkdaşlıqdan imtina etmişdim?” adlı məqalələrimi oxumağa dəvət edirəm".

YENİ MÜSAVAT
N 142 (7031) 4 iyul 2018

# "Bu hadisəni təxribatla və ya terrorla əlaqələndirmək yersizdir"

## Siyavuş Novruzov: "İşıq sönəndən sonra ancaq əlac qaldı yatmağa"

**Yeni Azərbaycan Partiyasının (YAP) icra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov "Yeni Müsavat"ın suallarına cavab verib.**

İyulun 3-də Mingəçevir şəhərində yerləşən "Azərbaycan İstilik Elektrik Stansiyası" MMC-nin yarımstansiyalarından birində, cərəyan transformatorunda baş vermiş qəza ətrafında müxtəlif fikirlər səslənir. Hakim partiyanın rəhbərliyində təmsil olunan S.Novruzovla əsasən bu mövzuda danışmaq istədik. Ancaq müsahibəmiz digər aktual mövzuları da əhatə etdi.

**- Siyavuş bəy, telefon zənglərimizə cavabınızın gecikməsi belə qənaət yaratdı ki, istirahətdə deyilsiniz. Hətta toplantılarınızın olduğunu dedilər. Bilmək olarmı nə toplantı idi?**

- Yox, istirahətdə deyilik, yeni qərargahda, iş başındayıq. Belə bir fikir var ki, siyasətdə heç vaxt istirahət olmur. (Gülür) Toplantıya gəldikdə, yarım ilin yekunlarını, həmçinin növbəti yarım ilin planlarını müzakirə edirik. Ölçülüb-biçilir, hazırlanır, təhlillər aparılır. Bilirsiniz, 3 il dalbadal seçki ilidir. Prezident seçkiləri oldu, ondan sonra bələdiyyə və parlament seçkiləri keçiriləcək. Bununla bağlı işlər var. Ən əsası da bizim partiya həyatı ilə bağlı işlərimiz çoxdur. Partiya strukturlarının fəaliyyəti, onların hesabatları var. Bir neçə gün əvvəl rayon sədrlərinin hesabatını keçirdik. Həmçinin gənclər birliyinin, aparat rəhbərlərinin toplantısı oldu, növbəti yarım il üçün tapşırıqlar verdik.

**-Deməli, növbədənkənar parlament seçkilərindən söhbət getmir. Yoxsa, bununla bağlı partiya daxilində hazırlıqlar aparılır?**

- Hələlik, belə bir şey yoxdur. Burda iki amil olmalıdır: ya parlament buraxılmalıdır ki, seçki qabağa çəkilsin, ya da əvvəl referendum keçirib, sonra parlament seçkisinə getmək lazımdır. Çünki parlament seçkilərinin keçirilməsi vaxtı konstitusiyada göstərilib.

**- Bəs, Milli Məclisdəki 6 boş qalmış yerlə bağlı necə, seçkilər təyinə olunacaqmı?**

- Bu, artıq MSK-nın səlahiyyətlərinə aiddir. Bizə aid olan odur ki, MSK boş qalan yerlərlə bağlı seçki təyin edəcəksə, biz ora namizəd irəli sürəcəyik.

**- Siyavuş bəy, günün, bəlkə də ilin ən ciddi hadisəsi ölkədə yaşanan elektrik enerjisi problemi ilə bağlıdır. Yəqin ki, bu, partiyadakı toplantıda da müzakirə olunub. Gecə yarısı ölkənin işıqsız qalması ilə bağlı sizin ehtimallarınız, məlumatlarınız nədən ibarətdir? Baş verənlərdə terror, təxribat izi axtarmağa ehtiyac varmı?**

- Yox. Mən hesab edirəm ki, hava şəraiti ilə bağlı baş verən hadisədir. Biz hamımız kondisionerdən istifadə edirik. Elə bu gün 46 dərəcə istilik proqnozlaşdırılıb. Kondisionerlərin işləmə gücü və tələbatı var. Bir faktı deyim: yaponlar hesablayıblar ki, may ayından sentyabr ayına qədər əgər bütün dövlət nümayəndələri, o cümlədən də rəsmi şəxslər qalstuksuz işə gəlirsə, o halda Yaponiyada 3-5 faiz işığa qənaət olunur. Təsəvvür edirsinizmi bu, nə deməkdir? İndi bizdə ən müxtəlif yerlərdə, restoranlarda kondisionerlərin, soyuducuların sayının artması və s. məsələlər öz təsirini göstərir. Enerji tələbatı var, ola bilər ki, bunun nəticəsində hadisə baş verib. Yəni dünyanın hər yerində fors-major hallar yaşanır. Ən əsası budur ki, müvafiq qurumlar baş verən problemi dərhal aradan qaldırır və qaldırmağa davam edir. Azərbaycanın energetika sahəsi çox inkişaf edib. Mən bir çox ölkələrdə olmuşam, həmçinin bizi əhatə edən dövlətlərdə. Bu gün Azərbaycanda olan energetika, yeni modul stansiyaların olması, onların ən yüksək şəkildə yeni texniki avadanlıqlarla təmin olunması, həmçinin onlarla bağlı istehsal müəssisələrinin məhz ölkəmizdə olması faktdır. Vaxtilə transformatorları çox böyük çətinliklə ayrı-ayrı ölkələrdən alırdıq. Bu yaxınlarda cənab prezident böyük bir transformator istehsal edən zavodun açılışında iştirak etdi. Yəni bütün bunları özümüz edirik. Ötən gecə baş verənləri də təbii fəlakət, təbii hadisə kimi qiymətləndirmək olar. Bu hadisəni təxribat, terror aktı ilə əlaqələndirmək yersizdir.

**- Tənqidçilər daha çox bu fikri vurğulayırlar ki, bütün bir ölkə bir transformatorun ümidinə qalmamalı idi, alternativlər olmalı idi. Özü də Azərbaycan müharibə vəziyyətində olan ölkədir. Bununla bağlı nə deyə bilərsiniz?**

- Müəyyən alternativlər işə salındı və müəyyən hissələrdə, vacib sahələrin əksəriyyətində elektrik enerjisi bərpa olundu. Qalanı isə hissə-hissə...Müharibə vəziyyətində olan ölkənin müharibə rejimi var. O da nəzərdə tutulub. Əgər Azərbaycanda bununla bağlı belə hal yaranacaqsa, o zaman fövqəladə hal rejiminə keçiləcək. Yəni hər dəqiqə o rejimə keçilmir. Məsələn, deyək ki, Azərbaycanın müəyyən ehtiyatları var, ərzaq, taxıl ehtiyatı və s. Bunlar hamısı fövqəladə vəziyyət üçün nəzərdə tutulur. Elə hər gün götür ehtiyatlardan istifadə elə, bu, olmaz. Əgər müharibə vəziyyəti yanacaqsa, müharibə şəraiti olacaqsa, təbii ki, bununla bağlı xüsusi proqram var və bu proqrama uyğun olaraq məsələlər həll olunur. Mən 15 il Təhlükəsizlik və müdafiə komitəsinin üzvü olmuşam və bunları çox gözəl bilirəm. Bunlar hamısı var. Orada alternativ nələri bərpa edirlər, nələr işə düşür, necə olur. Yoxsa hər gün bunu göstərməyə, yaxud tətbiq etməyə ehtiyac yoxdur. Deyək ki, bizim Şimal DRES var, onu işə sala bilərlər. Yaxud başqa variantlar var. Baxıldı ki, indiki halda bərpa olunandır və bərpa da olundu.

**- Maraqlıdır, siz özünüz işıq sönəndə nə etdiniz? Narahat oldunuzmu?**

- Futbola baxırdım. Bu hadisə futbol qurtardıqdan sonra baş verdi. İşıq sönəndən sonra ancaq əlac qaldı yatmağa. (gülür)

**- Bəs, ölkənin hakim partiyasının rəhbər strukturunda təmsil olunan şəxs maraqlanmadımı ki, nə baş verir?**

- Aydın məsələdir, yoldaşlarla əlaqə saxladıq. Bəlli oldu ki, nə baş verib və nə vaxta qədər bərpa olunacaq. Yəni bu, bəlli olan məsələ idi. Odur ki, məsələnin şişirdilməsinin o qədər də tərəfdarı deyiləm. Axşamdan bəlli idi ki, saat filandan hansı hissələr bərpa olunub. Təqribən 15 dəqiqə sonra. Həmçinin bütün o sahəyə aid olan strukturlar dərhal iş başına keçdilər.

**- Hazırda suyunuz necə, gəlirmi?**

- Suyumuz da gəlir, işığımız da yanır. (gülür) Tədricən hər yerdə problemlər həll olunar, inşallah, hamı aydınlığa çıxar!

**- İnşallah! Siyavuş bəy, hazırda əksər insanlar narahat edən digər problem var, bu da taxıl bişmək üçün kombayn çatışmazlığı ilə bağlıdır. Deputat, YAP funksioneri olaraq vəziyyətlə bağlı nə deyə bilərsiniz?**

- Bununla bağlı da kifayət qədər məlumatım var. Texnika illər üzrə alınmır. Məsələn, bir il bir məhsul bol olur, o biri il



"Yerdə qalanlar elə başa düşdü ki, zəhərlənənlərə dotasiya verəcəklər, evdə xəstələnən, qripləyən hamı özünü saldı xəstəxanaya ki, "mən də zəhərlənmişəm"

isə başqa bir məhsul. Bu, dünyada da belədir. Bu il keçən ilə nisbətən taxıl əkini daha çox ərazini əhatə edir. İkinci bir tərəfdən, havaların isti keçməsi taxılın tez yetişməyinə təsir göstərib. Məsələn, bu il pambıq daha tez yetişəcək, çünki isti sevən bitkidir. Texnikanı hava şəraitinə uyğun olaraq almırsan. Texnika nəticə ilə bağlı alınır. Amma fermer azaddır. Torpaq mülkiyyəti də üç hissədən ibarətdir: dövlət mülkiyyəti, bələdiyyəti və şəxsi mülkiyyət. Şəxsi mülkiyyətdə olan torpaq mülkiyyətində heç kəsə deyə bilməzsən ki, sən filan məhsulu ək! Təbii ki, onu maraqlandırırsan, strateji məhsulların əkilməsi üçün vergini götürürsən, subsidiyalar, dotasiyalar verirsən, fermer maraqlı olur, hansısa məhsulu əkir. Amma ümumilikdə fermerə heç kəs diktə edə bilməz ki, sən nə əkməlisən. İndi fermer əkib, məhsul da bitib. Azərbaycanda bir xüsusiyyət var, mən bunu çoxdan müşahidə edirəm. Siz də uzun illərdir jurnalistika fəaliyyəti ilə məşğulsunuz, bunu gözəl bilirsiniz, biri bank açırsa, hamı başlayır bank açmağa. Biri tikinti sektoruna gedirsə, hamı başlayır tikinti işi ilə məşğul olmağa. Biri sökündü işi ilə məşğul olursa, bunlar da profilini dəyişir, o işə başlayır. Daha düşünmürlər ki, 30 faiz bu işlə, 30 faiz digər işlə, 30 faiz da o biri işlə məşğul olsa, daha effektli nəticə alınar. Yəni həm birinin bazarına girməzlər, həm də burada tələbat və qazanc yaxşı olar. Məsələn, görürsən bir kənddə biri taxıl əkirsə, digərləri fikirləşir ki, biz niyə taxıl əkməyək? Çünki taxılçılıq nisbətən yüngül başa gələn sahədir, bir neçə dəfə suvarmaqla can qurtaran bir işdir. Amma digər sahələr, tutalım tərəvəzçiliklə məşğul olmaq çətindir. Təbii ki, onun gəliri də taxıldan artıqdır, amma ona əmək sərf etmək lazımdır. Daha çayxanada oturmaq yox.

**- Ardıcıl şəkildə pambıqçıların kütləvi şəkildə zəhərlənməsi barədə danışılarkən də təxribat versiyası gündəmə gəlmişdi.**

- Biz o məsələ ilə bağlı da araşdırmaq apardıq. Bir neçə nəfərlə bağlı belə bir hal baş vermişdi. Yerdə qalanlar elə başa düşdü ki, zəhərlənənlərə dotasiya verəcəklər, gün vuran, evdə xəstələnən, qripləyən hamı özünü saldı xəstəxanaya ki, "mən də zəhərlənmişəm". (gülür) Yəni belə hallar da var idi. Belə hallar da araşdırılır. Amma hər kəs bilsin ki, bu dövlətdə heç bir məsələ diqqətdən kənarda qalmır, hər bir məsələ araşdırılır. Bir neçə rayonda zəhərlənmə hadisələri olmuşdu. Amma onlara qoşulanlar çox oldu.

**- Yəni dediklərinizdən belə çıxır ki, Azərbaycana qarşı hələ də hər hansı xarici, ya daxili qüvvələrin təxribatçı planlarından söhbət gedə bilməz, eləmi?**

- Bəli. Bilirsiniz ki, Azərbaycanda bu günə qədər ictimai-siyasi sabitlik çox yüksək şəkildə qorunur. Azərbaycan prezidentinin, Ali Baş Komandanın rəhbərliyi altında bütün hüquq mühafizə orqanları birgə fəaliyyət göstərir. Elə yeri gəlmişkən, ötən gün (2 iyul-red.) Azərbaycan polisinin 100 illiyi tamam oldu, onları da bu münasibətlə təbrik edirik. Doğrudan da müstəqil Azərbaycan dövlətinin həyatında mühüm rol oynayıblar. Lazım olanda səngərlərdə döyüşüblər, lazım gələndə terrorizmə qarşı mübarizə aparıblar, həmçinin ictimai asayişin qorunmasında iştirak ediblər. Bu gün Azərbaycanın təhlükəsizlik xidməti, polis orqanlar, fövqəladə hallara məsul şəxslər, həm də Azərbaycan ordusu tam şəkildə birgə Silahlı Qüvvələrin daxilində çox düzgün olaraq, Ali Baş Komandanın rəhbərliyi altında iş aparırlar. Onun nəticəsidir ki, ən böyük, mötəbər tədbirlər Azərbaycanda keçirilir və ölkəmizdə ictimai-siyasi sabitlik həmişə qorunur. Keçmişdə olan hadisələri, terror hadisələrini çıxmaq şərtilə, sonrakı dönəmlərdə ölkəmizdə heç vaxt elə hallar baş verməyib. İnşallah, bundan sonra da baş verməz, bunu arzu edirik.

**- İnşallah! Siyavuş bəy, hələlik iş başında olsanız da, yəqin istirahət planınız da var. Harada istirahət edəcəksiniz, sirr deyilsə?**

- Hələ ki, elə bir planım yoxdur. Hələlik burdayam, işdəyəm. Uzağı Naxçıvana gedəcəyəm.

**- Deputatlara ayrılan tətil pulu barədə də sosial şəbəkələrdə çox danışıldı. Siz nə qədər maaş aldınız?**

- Başım o qədər qarışıb ki, maaşın verilib-verilmədiyini bilmirəm...

**Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**



# Yüklənmə

Zamin HACI
zaminhaci@gmail.com

## "Aləmi bəzər, özü lüt gəzər"

*(tapmaca)*

**Azərbaycan Avropanın və dünyanın enerji təhlükəsizliyini təmin eləmək üçün böyük işlər görür, ancaq öz enerji təhlükəsizliyimizdə hələ də təhlükələr qalırmış. Bunu bir daha 3 iyul gecəsinin qəzasında gördük. Nə üçün belədir, bax: epiqraf verdiyim ata sözümüzə. Əslində bunu da istəsən bizim geniş ürəkli, səxavətli, canıyanan dövlət olmağımızla yozarsan.**

Canıyanan demişkən... Hamı bu saat qaranlığa səbəb axtarır, halbuki o qaranlığın səbəblərini hər gün, hər dəqiqə görürük, başa düşürük, dilimizə gətiririk. Bərkdən deyənlərin isə axırı yaxşı olmur - onları daha qaranlıq yerə göndərirlər. Yüklənmədən danışırlar, ancaq bizim haçan yükümüz yüngül oldu ki? Belimiz əyilib yükdən. Sürünə-sürünə yaşayırıq. İşğal yükü, korrupsiya yükü, yalan yükü, yaltaqlıq yükü... Birdirmi, beşdirmi, ondurmu? İnsanı neçə kilovatt yüklənmək olar ki, o, yanmasın? Dərdin meqavattı neçəyə qalxanda rele atır? Ürəyimizin telləri yananda beynimizi prosesə qoşsaq gərginlik aradan qalxarmı? Gözümüzün işığı azalıbsa, qaranlıqdan qorxmağa dəyərmi?

Deyir indi də biz xaricdən elektrik enerjisi alırmışıq. Qəzanın nəticəsini aradan qaldırmaq üçün. Ancaq bu qədər enerjisi olan ərazi nədən itdən-qurddan işıq dilənməlidir? Altı-üstü, hər yeri işıqdır, enerjidir, oddur. Odlar yurdu da heç qaranlıqda qalar? Qalarmış. Bunu da görürük. Hələ nefti-qazı qırağa qoyaq. İlin 300 sutkası külək əsən, elə o qədər də günəşli günü olan torpaq alternativ, tükənməz enerjidən niyə yararlana bilmir? Bakıdan çıxanda yol qırağında nümayiş üçün külək fırlanğıcları da qoyublar, Günəş panelləri də. Ancaq nə o pərlərin tərpəndiyini görən olub, nə panellərdən enerji alındığını. Bəlkə panelləri söküb əhaliyə versələr manqal qayırıb üstündə kabab bişirərdik. Çünki millətin bir ayda inək təzəyindən aldığı alternativ enerji o külək-kələk qurğularının 10 ildə "verdiyindən" çoxdur. Hər halda, istənilən rəqəm sıfırdan böyük olmalıdır. Riyaziyyat elmində - dünyada qəbul edilən normalarda. Bizdə sıfır istəsə bütün rəqəmləri döyər.

Sözgəlişi, bu qaranlıqda ziyalılarımızın böyük rolu vardır. Onlar öz simalarından xalqa işıq salmadılar. Tolik, Faiq, Roza, nə bilim, Anar müəllim, Çingiz müəllim və sairə başqa dəyərli ziyalılarımızı nəzərdə tuturam. Onlar pəncərə qarşısında durub qaranlığa öz üzlərinin nuru ilə işıq zolaqları sala bilərdilər, lakin nədənsə etmədilər. Millətə yazıqları gəlmədi. Bəs bu ziyanı daha haçan işlədəcəksən? Yeri gəlmişkən, çox adam fikir vermədi, qəzadan yarım sutka öncə Azərbaycan Milli Elmlər Akademiyasının əsas binasında elektrik qəzası olmuşdu. Alimlərimiz bir neçə saat işıqsız qalmışdı. Bəlkə də bu qəza daha yekə qəzanın xəbərdarlığı idi. Axı vulkan da püskürməzdən qabaq kərtənkələlər qaçır, zəlzələdən öncə siçanlar narahat olurmuş. Biz də gərək öz alimlərimizi diqqətdə saxlayaq. Bir işə yaramasalar da ziyaları var.

Ziya demişkən, rəhmətlik nəqliyyat nazirimiz Ziya müəllimin də bir gün qabaq villası yanmışdı. Ümumiyyətlə, Ziya müəllimin son illər yanan villalarının sayı bəlkə 10-u adlayıbdır. Mümkündür bunun da elektrik qəzasına təsiri olsun.

Qəzanın nəticələrini araşdırmaq üçün komissiya yaradılıb, ancaq mən fikir verdim, orda vəzifələrin adları yazılıb, həmin vəzifəni daşıyan adamın isə yox. Əlbəttə, formal olaraq belə də yazıla bilər, eyni zamanda, bəzi nazirliyin başsız qalması komissiya siyahısına hansısa ad yazmağa mane olmur. Sadəcə, bizdə son illərdə qəza komissiyalarına vəzifəli şəxslərin adlarını heç yazmırlar. Görünür, rəhbərlik də başa düşür ki, bunun elə mənası yoxdur. O komissiya heç bir faydalı şey araşdırıb ortaya çıxarmayacaqdır, yenə köhnə hamam, köhnə tas olacaqdır.

Anomal istilər davam edəsə Günəşi tutub Kürdəxanıya salmalıyıq. Başqa yolumuz qalmır.



# Paşinyan üçün kritik gün - Əliyev Brüsselə getməsə...

## İrəvan Moskvanın başı üzərindən Qərbə əl uzadır; Ermənistanın yeni rəhbərliyi Rusiyanı NATO-ya dəyişə biləcəkmi, nankorluğa Kremlin cavabı nə olacaq? **Politoloq:** "Ermənilər 100 il öncəki kimi yenə özlərini şoseyə çıxmış məlum peşə sahibləri kimi aparırlar..."

**Ermənistanın prezidenti Armen Sərkisyanın çoxgünlük Avropa və ABŞ səfəri başa çatıb. Məlumatlara görə, səfərdə əsas məqsədlərdən biri kasıb Ermənistana Qərb sərmayələrini və erməni lobbisinin paralarını cəlb eləmək olub. Lakin erməni qaynaqlarının yaydığı xəbərlərdən qənaət hasil olur ki, səfər bu xüsusda uğurlu olmayıb. Müharibə və blokada vəziyyətində olan, dünya okeanına çıxışdan məhrum, nəhayət, Rusiyanın vassalı sayılan bir ölkəyə ağlı başında olan hansı Qərb investoru sərmayə yatırar ki?**

Qərbyönlü adam hesab olunan Sərkisyanın bir hədəfi də ABŞ prezidenti Donald Trampla görüşmək olub ki, buna da 4 günlük səfərdə nail ola bilməyib. Erməni prezidenti böyük səylərdən sonra yalnız dövlət katibi Mayk Pompeo qəbul edib. Amma o da İrəvana elə bir ümid verməyib. Qısası, Sərkisyan Amerikadan "əli ətəyindən uzun" qayıdıb.

Ermənistanın baş naziri, komandasını müstəsna olaraq, Amerikanın, Sorosun "uşaqları"ndan quran Nikol Paşinyan isə bir həftə sonra - iyulun 11-də Brüsseldə başlayacaq NATO sammitinə hazırlaşır. "Yeni Müsavat"ın məlumatına görə, bu barədə özünün hökumətdəki mənbələrə istinadən erməni nəşri "Jamanak" yazıb. "Ermənistanın yeni hökuməti hesab edir ki, hərbi alyansın sammitində iştirak ölkə üçün olduqca vacibdir, nədən ki, Ermənistan hakimiyyəti NATO-ya təhlükəsizlik sahəsində etibarlı müttəfiq kimi baxır" - qəzet yazıb.

Belə çıxır ki, Rusiya daha işğalçı ölkə üçün təhlükəsizliklə bağlı etibarlı müttəfiq sayılmır. Bu, gerçəkdə də belədir. Hakimiyyət dəyişikliyindən sonra erməni ictimai rəyində, xüsusən də işğalçı ölkənin ekspert çevrələrində açıq şəkildə Rusiya əleyhinə mövqe güclənməyə başlayıb və davam edir. İşğalçı ölkədə "öz müttəfiqlik öhdəliklərinə sadiq qalmayan" Rusiyanın təsir dairəsindən uzaqlaşmaq çağırışları xeyli artıb. Hərçənd Nikol Paşinyan baş nazir olar-olmaz Soçiyə qaçaraq V.Putinə sədaqət andı içdi, Ermənistanın KTMT və Avrasiya Birliyində qalacağına, xarici siyasət kursunda Qərb deyil, Rusiya vektorunun üstün olacağına Putini əmin eləməyə çalışdı.

Təbii ki, Moskva bunu nəzərə aldı, lakin əsas olan verilən vədlər deyil, atılan addımlardır. Paşinyan hökumətinin xarici siyasət kursu isə daha çox Ermənistanı Qərb üçün satışa çıxarmaq üzərində qurulub. Hər halda, kənardan belə görünür. Obrazlı ifadə eləsək, İrəvan Moskvanın başı üzərindən Qərbə əl uzadır. Moskva bunu da görməzlikdən gələ bilməz...

*****

"Jamanak" qəzeti NATO-nun 11-12 iyul sammitinə Azərbaycan prezidenti İlham Əliyevin qatılmayacağını ehtimal edib. Bununla bağlı hələ ki rəsmi Bakının mövqeyi bəlli deyil. Əliyev toplantıya qatıla da bilər, qatılmaya da. Ancaq Azərbaycan prezidenti sammitdə iştirak etsə belə, bu, Moskvanın, konkret olaraq, Putinin erməni baş nazir Paşinyana münasibətini dəyişə bilməz. Çünki artıq adi gözlə də görünür ki, Ermənistanın yeni rəhbərliyi Rusiyanı Qərbə, NATO-ya dəyişməyin yolunu axtarır, ona kurs götürüb.

Bunu da Moskvada bilir və fərq edirlər. O üzdən Paşinyan-Sərkisyan cütlüyünün "iki stulda" oturmaq siyasətinin nə ilə bitəcəyi çox maraq doğurur. Bir şey dəqiqdir ki, 11 iyul Paşinyanın siyasi taleyində kritik gün ola bilər. Əlavə edək ki, mənzil-qərargahı Brüsselə yerləşən Avropa Birliyində də erməni baş naziri səbirsizliklə gözləyirlər. Hər halda, qurumun İrəvan təmsilçisinin bu günlərdə yaydığı açıqlamadan belə qənaət hasil olur.

*****

**"İndiki Ermənistan hakimiyyəti çox ağlasığmaz, reallıqdan uzaq olan bir konsepsiya irəli sürür". "Yeni Müsavat"ın məlumatına görə, bunu politoloq Eldar Namazov işğalçı ölkənin hazırkı rəhbərliyinin Qərbə reveranslarını axar.az-a şərh edərkən bildirib.**

"Rusiya bunu görür. Ermənistanın yeni hakimiyyətinin yürütdüyü siyasətə əsasən, Rusiya Ermənistanın təhlükəsizliyini təmin etməli, ABŞ isə Ermənistanın iqtisadi inkişafına zəmin yaratmalıdır. Ermənistan öz iqtisadi inkişafını ABŞ-la bağlı görür və buna görə də ABŞ-ın Ermənistana güclü investisiyalar qoymasına çalışır. Təbii ki, belə yanaşma nə ABŞ-ı, nə də Rusiyanı qane edir. Nə qədər ki, Ermənistanda Rusiyanın hərbi bazaları var, nə qədər ki, Ermənistan Rusiya ilə hərbi blokdadır, ABŞ bu ölkəyə çox ehtiyatla yatırım qoyacaq. Eyni zamanda bu yanaşma Rusiyanı da qane edə bilməz. Çünki Rusiya başa düşür ki, pulu kim verirsə, sabah həmin ölkə də burada söz sahibi olacaq. Ona görə də əgər Ermənistan öz iqtisadiyyatını, gələcəyini ABŞ-la bağlamaq istəyirsə, Rusiya həmin ölkə ilə strateji müttəfiqlik münasibətlərinə son qoyacaq. Bu proses isə bu gün sürətlə davam edir", - deyə Namazov qeyd edib.

**Politoloq vurğulayıb ki, ümumiyyətlə, tarixən bizim regionda başqa geosiyasi oyunçuların arasında intriqalar salmaq, qonşu dövlətlərin, xalqların torpaqlarını xarici aktyorların hesabına zəbt etmək ermənilərin xislətindədir:** "Onlar 100 il bundan əvvəl apardıqları siyasəti bu gün də davam etdirirlər. Hər zaman özlərini şoseyə çıxmış məlum peşə sahibləri kimi aparırlar. O vaxt da onlar özlərini böyük dövlətlərə təklif edirdilər, bu gün də. Amma son nəticədə həmişə bu yanaşma onların başında çatlayır. Hər zaman ermənilər əzilən tərəf olmağa məhkumdurlar. Bu də fə də onların sonu belə olacaq".

Politoloqun tarixi faktlara əsaslanan proqnozunu bölüşməmək mümkünsüzdür. Təəssüf ki, nə erməni xalqı, nə də onun liderləri yenə başlarına gələnlərdən nəticə çıxarmağa hazırlaşmırlar. Altını isə həm də bölgə və onun digər xalqları çəkir...

❑ **"Yeni Müsavat"ın analitik xidməti**

**Azərbaycanla Rusiya arasında son vaxtlar nəzərəçarpacaq səviyyədə yaxınlaşma prosesi gedir. Bu prosesin ən son özünü göstərən faktoloji hissəsindən biri iyulun 1-də Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində keçirilmiş “Bakı və Moskva arasında geopolitik ox: Azərbaycan Rusiyanın Cənubi Qafqazda yeganə müttəfiqidir” mövzusunda konfrans oldu. Konfrans iştirakçıları cəbhə xəttində strateji Lələtəpə yüksəkliyini və Cocuq Mərcanlını ziyarət ediblər.**




# Rusiyaya yaxınlaşmaq təhlükəsizdirmi?

## Tanınmış politoloq: “Azərbaycan Rusiya XİN-dəki erməni lobbisinə qarşı cəbhə formalaşdırır”

Beynəlxalq Avrasiya Hərəkatının rəhbəri, tanınmış rusiyalı politoloq və avrasiyaçı Aleksadr Duqin jurnalistlərə açıqlamasında deyib ki, Rusiya üçün Azərbaycanla münasibətlər ön plana çıxıb: “Çoxları yanlış olaraq düşünür ki, Ermənistanla Rusiyanın tərəfdaşlığı Azərbaycanla münasibətlərə ziyan vurur. Əslində isə bu, qətiyyən belə deyil. Rusiya üçün Azərbaycanla münasibətlər ön plana çıxıb”.

Azərbaycanın indiki vaxtda Rusiya ilə yaxınlaşmasına siyasi təhlilçilər müxtəlif istiqamətlərdən yanaşırlar. Bəziləri hesab edir ki, Nikol Paşinyanın Ermənistanda hakimiyyətə gəlişindən sonra Rusiya-Ermənistan münasibətlərində yaranan soyuqluqdan Azərbaycan istifadə etməyə çalışır. Bir sıra siyasi ekspertlər isə düşünür ki, Qərbin Rusiyaya qarşı sanksiyalarının get-gedə artdığı bir vaxtda, Qərbin hədəfində olan Rusiya ilə həddən artıq yaxınlaşmanın zərərləri də ola bilər.

**Politoloq Qabil Hüseynli** isə “Yeni Müsavat”a şərhində bildirdi ki, Rusiyadan uzaqlaşanda Rusiya daha aqressiv və təhlükəli olur. Azərbaycan ümumiyyətlə, lobbiçilik fəaliyyəti sahəsində o qədər də böyük uğur qazana bilməyib. Xüsusən Rusiyada lobbiçilik fəaliyyətində ermənilər bizi qat-qat üstələyir. Amma indi son dövrlərdə həm Azərbaycanın fəal müdaxiləsi nəticəsində, həm də Rusiyanın özündə kifayət qədər obyektivliyi ilə seçilən və Rusiyanın geostrateji maraqlarını konseptual şəkildə dəyərləndirməyi bacaran adamlar Ermənistanla Azərbaycanın Rusiyanın geostrateji maraqlarında xüsusi çəkisini müəyyənləşdirərək Azərbaycana üstünlük verməyə başlayıblar: “Məsələn, Rusiyanın çox ciddi analitikləri bir rəyə gəliblər ki, bu günə qədər Cənubi Qafqazda Rusiyanın geostrateji maraqlarının konseptual şəkildə işlənib hazırlanmaması burada xaotik siyasətin yürüdülməsinə, nəticə etibarilə Rusiyanın maraqlarına uyğun deyil, ziyanına olan siyasətin formalaşmasına gətirib çıxarıb. İndi həmin siyasi analitiklərin, ekspertlərin çoxu belə hesab edirlər ki, Rusiyanın Cənubi Qafqazdakı geostrateji maraqlarını müdafiə edə biləcək və Rusiya ilə bərabərhüquqlu qonşuluq münasibətləri yeridə biləcək ölkələr içərisində ən münasibi Azərbaycandır. Bunun üçün onlar ciddi araşdırmalar aparıblar. Məsələn, Azərbaycanda əhalinin rəyini soruşublar və müəyyən olub ki, Azərbaycanda anti-Rusiya meylləri çox zəifdir. Demək olar ki, rusiyameylli adamların sayı daha çoxdur. Ermənistanla müqayisədə Azərbaycanda güclü rus icmasının olduğunu da və bu icmaya münasibəti də testdən keçiriblər və belə qənaətə gəliblər ki, Azərbaycan xalqında multikultural baxışlar, dini tolerantlıq, etnik tolerantlıq bölgədəki başqa xalqlarla müqayisədə ölçüyəgəlməz dərəcədə üstündür. Daha sonra Azərbaycanla yenə də Zaqafqaziyanın üç respublikası arasında rus dilinin yayılması, öyrənilməsi vəziyyəti ilə bağlı da sosioloji sorğu keçirilib və belə bir nəticə çıxarılıb ki, Azərbaycanda rus dilinin öyrənilməsi Sovet İttifaqı dövründən heç də pis vəziyyətdə deyil. Ermənistanda bir dənə də olsun rus dilində məktəb yoxdur. Gürcüstanda da buna bənzər vəziyyətdir. Amma Azərbaycanda 300-dən çox rus dilində orta məktəb var. Ali məktəblərin demək olar hamısında isə rus bölmələri var. Rus ədəbiyyatına, rus mədəniyyətinə, rus dilinə Azərbaycanda güclü meyl mövcuddur. Bütün bunları ümumiləşdirərək belə bir qənaətə gəliblər ki, Rusiyanın Cənubi Qafqazda müttəfiqi ola biləcək yeganə respublika Azərbaycandır. Üstəlik, onu da nəzərə alıblar ki, son dövrlərdə Rusiyanın türkdilli müsəlman ölkələri olan Türkiyə, İranla, Azərbaycanla, Qazaxıstanla və digərləri ilə münasibətləri sürətlə inkişaf edir və bu inkişafdan Rusiya böyük mənfəət götürür. Eyni zamanda geostrateji məsələlərdə siyasi tarazlığını qoruyub saxlaya bilir”.

**Politoloq vurğuladı ki, son günlər isə Azərbaycan-Rusiya münasibətlərində ciddi dönüş yarada biləcək hadisələr baş verməkdədir:** “Məsələn, Avrasiya Hərəkatı deyilən hərəkat və Aleksandr Duqinin, həm də bu təşkilatın ekspertlər qrupunun bütün üzvlərinin, Putinə yaxın olan analitiklərin, Duma deputatlarının Azərbaycana gəlmələri və işğaldan azad olunmuş Cocuq Mərcanlıya getmələri və ”Dağlıq Qarabağ və ətrafındakı işğal edilmiş rayonlar Azərbaycana qaytarılmalıdır və bu həm də Putinin mövqeyidir" bəyanatının səsləndirilməsi az əhəmiyyətli məsələ deyil. Həmin nümayəndə heyətinin üzvləri Rusiya ictimai rəyinə çox ciddi toxumlar atdılar və bu toxumlar cücərdikdən sonra rus ictimai rəyində, məncə, Azərbaycanla bağlı streotiplərin sındırılması və Azərbaycana obyektiv münasibətin formalaşması istiqamətində kəskin dönüşün yaranacağına əslə şübhə etmirəm. Azərbaycan Rusiya Xarici İşlər Nazirliyindəki güclü erməni lobbisinə qarşı cəbhə formalaşdırmağa başlayıb. Bu cəbhənin formalaşdırılması uğurlu gedir. Dumanın deputatı gəlib prezident Putinin adından Cocuq Mərcanlıda Azərbaycan ərazisinin bütövlüyü haqqında bəyanat verirsə, üstəlik də Azərbaycan əsgərinə ehtiram əlaməti olaraq onun əlini sıxırsa və Azərbaycanın ərazi bütövlüyünü birmənalı qaydada müdafiə etdiyini bəyan edirsə, bunun nəyi pisdir və ya bunun nəyi təhlükəlidir? Əlbəttə, bu, bizim xeyrimizədir".

**Q.Hüseynli hesab edir ki, Rusiyanın Cənubi Qafqazla bağlı siyasətində müəyyən dəyərlərin, müəyyən konsepsiyaların yenidən baxılmasına başlanılıb. Bu konsepsiyada ermənilərə indiyə qədər verilən üstün rola sanki yenidən baxılır və Nikol Paşinyanın hakimiyyətə gəlməsi ilə bağlı olaraq Kremldə soyuqqanlı surətdə Ermənistanın gələcək siyasi xəttini, Moskva ilə münasibətlərini proqnozlaşdıra biləcək testlər aparılır:** “Bu testlər nəticəsində belə məlum olur ki, uzaq dövr üçün Ermənistanla Rusiyanın strateji əlaqələri zəifləyə və hətta baş tutmaya bilər. Bu fonda Azərbaycana üstünlük verilməyə başlanıb və Azərbaycanla bağlı mövqelərdə dəyişikliklər baş verməkdədir. Mən bunun avqustun 30-da prezidentlər İlham Əliyev və Vladimir Putinin görüşündən sonra daha uğurlu bir siyasi prosesə çevriləcəyinə inanmaqdayam”.

❑ **Etibar SEYİDAĞA,**
**“Yeni Müsavat**

# AŞ PA-ya giriş qadağası olanlar bunları etməlidir-prosedur

## Ekspert deyir ki, sanksiya qərarlarından apelyasiya şikayəti vermək mümkündür

**Azərbaycanın AŞ PA-dakı nümayəndə heyətinin keçmiş üzvü, keçmiş deputat, Milli Şuranın Koordinasiya Mərkəzinin üzvü Gültəkin Hacıbəyli Avropa Şurasının korrupsiya ilə bağlı hesabatının “hərtərəfli və əsaslı” hazırlandığı qənaətindədir. Bununla da G.Hacıbəyli özünə də qarşı ötən həftə AŞ PA-ya ömürlük daxil olmağa qadağa qoyan sanksiyanın əsaslı olduğunu etiraf etmiş olub.**

Keçmiş deputat qərarın ləğvi üçün şəxsən özü tərəfindən hansısa addımlar atmaq fikrinin olub-olmadığı haqda heç bir fikir bildirməyib.

G.Hacıbəyli AzadlıqRadiosuna açıqlamasında bildirib ki, onun AŞ PA-dakı fəaliyyəti dövründə də bəzi avropalı deputatlara hədiyyələr verilib və bu iş leqal şəkildə olub: “Məsələn, kürü, suvenirlər və s. Mən özüm də Avropadakı dostlarıma iki qutu kürü aparmışam. Lobbiçilik fəaliyyəti məqsədilə. Leqal şəkildə bəzi addımlar atılırdı. Açığı, o zaman belə ciddi şəkildə korrupsiyanın şahidi olmamışam. Əslində buna zərurət də yox idi. 2009-cu ilə qədər Avropa Şurası ilə Azərbaycan arasında normal əməkdaşlıq var idi. Problemlər daha çox 2009-cu ildən sonra yaranmağa başladı. Azərbaycana neft gəlirləri gəldi, varlandı. Bundan sonra hakimiyyət bu fikrə düşdü ki, avropalı deputatları da ələ alsın, məruzəçiləri öz istəyi ilə təyin etsin. O zaman Kristof Ştrasserin Azərbaycanda siyasi məhbuslarla bağlı qətnaməsini əngəlləmək məqsədilə geniş kampaniya başladıldı”.




Bəs Gültəkin Hacıbəyli, həmçinin barəsində AŞ PA-ya ömürlük giriş qadağası qərarı çıxarılan digər şəxslər onlara qarşı çıxarılan qərarın əsassız olduğunu sübuta yetirə bilsələr, qərar ləğv oluna bilər? AŞ PA-da belə bir təcrübə, presedent varmı?

**Avropa Şurası və Avropa Birliyi üzrə mütəxəssis Yegana Hacıyeva “Yeni Müsavat”a bildirdi ki, AŞ PA Prosedur qaydaları, immunitetlər və institusional məsələlər Komitəsinin korrupsiyada və etika qaydalarını pozmaqda ittiham olunan indiki və keçmiş üzvlərinə tətbiq olunan sanksiya qərarlarından apelyasiya şikayəti vermək mümkündür:** “Məsələ ondadır ki, sanksiyalar ceza tətbiqi kimi hüququn norma elementidir və sanksiyanın tətbiq olunması hüquqi prosedur qaydadır. Hüquqda qanunun, qaydaların, normativ aktların və hüquqi prosedurların geriyə qüvvəsi yoxdur. Sadəcə olaraq, Azərbaycan tərəfi, konkret olaraq sanksiyaya məruz qalan şəxslər qurum qarşısında apelyasiya şikayəti verə və sübutlar təqdim edərək qərarın ləğvini tələb edə bilər”.

❑ **Etibar SEYİDAĞA,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 142 (7031) 4 iyul 2015



# Hava, su, internet dövrü

Samir SARI

**Hər dəfə ölkədə texnogen qəza olanda, şəhərdə, ya da onun bir hissəsində elektrik enerjisi kəsiləndə yadıma o Hollivud filmi düşür. Filmin adını unutmuşam, amma bəlkə də Youtube-də bir az axtarıb-araşdırandan sonra tapmaq olar.**

Azərbaycan telekanallarına tövsiyə edirəm ki, o filmi videotekalarından götürüb belə günlərdə versinlər (*amma ta faciə günlərimizdə yeddi telekanalda nümayiş etdirilən "Dədə Qorqud"a döndərməyə ehtiyac yoxdur, bir-ikisi verdi, bəsdir*).

Filmin süjet xətti isə belədir: adamın biri meqapolisin göydələnində pivə içə-içə televizora baxığı yerdə qəfildən işıq sönür. Adam durub pəncərədən baxır ki, görsün, nə olub, nə baş verib, qonşu küçələrdə də sönübmü. Adətən hamı elə edir - istər Mumbay olsun, istər Çikaqo və ya Yevlax.

Əsərin qəhrəmanı pəncərədən baxanda görür ki, bayaqdı ha, o biri yaşayış massivlərində də işıqlar ard-arda sönə-sönə getdi və şəhər zülmətə qərq oldu. O, narahat olur, başa düşür ki, bu, yekə texnogen qəzadır.

Adam geyinib düşür aşağı, maşınına minib gedir marketə, bilir ki, belə vaxtlarda bəzi zəruri ərzaq və sair gündəlik tələbat malları alınmalıdır. Amma heç demə, şəhər əhalisinin mühüm bir hissəsi onun düşündüyünü düşünüb və cumub marketlərə. Hamı zülmətdə, hər kəs tələşlı. Panika get-gedə böyüyür. İnsanlar əsəb sarsıntısı keçirir, necə deyərlər, başları çönür. Marketlərdə talan başlayır. Sözü çəpləşənlər, bir-biri ilə tutaşanlar... Arada silaha əl atanlar, bir-birini yaralayanlar olur.

Bir neçə saat öncə bolluq-bostanlıq, rifah-firavanlıq yağan, təhlükəsiz bir şəhər it gününə qalır. Şəhərdə sanki vətəndaş müharibəsi gedir. Tərs kimi, texnogen qəzanın nəticələri tezliklə aradan qaldırılmır. İşıq yanmır və insanlar getdikcə hövüllənirlər. İşıq yananda isə məlum olur ki, abad şəhər bərbad olub gedib, insanlar bir-biri ilə düşmən olub, düzən, asayiş pozulub.

Filmin müəllifləri bununla demək istəyirlər ki, müasir həyatın rahatlıqlarına, abadlığına baxmayın, təkcə işığın kəsilməsi kifayət edir ki, hər şey dağılıb-tökülsün.

Srağagün gecə ölkəmizdə baş verən analoji hadisə də göstərdi kiE. biz də müasir meqapolisik, işığımız kəsiləndə özümüzü müəyyən qədər Los-Ancelesdəkilər kimi apara bilirik.

Hələ yaxşı ki, işıq gecə saatlarında sönmüşdü. Bu vaxtlarda isə, bildiyiniz kimi, normal insanların çoxu yatır. Düzdür, müasir dünyada artıq gecə saat 1-5 arasında yatmayanlar da anormal adam sayılmırlar, amma ən azı o məlumdur ki, belə adamlar səhər saat 8-də işə getməyəcəklər və belələrinin sayı azdır.

Ona görə də gecə yarısı elektrik işığının kəsilməsi böyük panikaya səbəb olmadı (sözügedən filmdə işıqlar axşam saat 10-11 radələrində sönür). Hərçənd sosial şəbəkədə xeyli ajiotaj olub. Telefonlarıyla internetə, sosial şəbəkəyə girənlər ölkədə nə baş verdiyini bilmək, bildiklərini bölüşmək üçün xeyli yazışmalar aparıblar.

Bizim çoxumuz da o vaxt yuxuda olmuşuq, heç xəbərimiz də olmayıb ki, ölkədə bu boyda texnogen qəza olub. Məsələn, mən özüm gecənin bir yarısı yuxudan ayıldım, gördüm, kondisioner işləmir və işıq da yoxdur, fikirləşdim ki, yəqin yaxın yarımstansiyada açılma olub. Ta nə bilim ki, açılma Mingəçevirdəki düyün stansiyasında baş verib.

Düzdür, biz o qədər həssas camaat deyilik ki, gecə yarısı kəsilən elektrik enerjisinin böyük texnogen qəzanın nəticəsini bilsək də, durub marketlərə hücum çəkək. Bilsək, deyərdik, gecənin xeyrindənsə gündüzün şəri yaxşıdır, sabah ola, xeyir ola, qoy, gün çıxsın, görək nə olub, nə baş verib.

Təcrübə göstərir ki, düzü elə budur. Beş saat işığın olmamasına görə həyəcanlanıb benzin satmaq istəməyən adamın üstünə tüfəng çəkmək (filmdə elə bir epizod da var) nəyə lazımdır? İctimai asayiş hər şeydən önəmlidir. Kütləvi panika isə pis şeydir.

Allah göstərməsin, bizdə kütləvi panikanı işıq, qaz, su kəsintisi yarada bilməz, əsasən iki xəbər yarada bilər: 1. "Müharibə başladı"; 2. "Çörək qıtlığı var, aclıq olacaq".

Hə, bir də üçüncüsü də var: "İnternet bağlanıb".

Bax, bu sonuncu da bizi özümüzdən çıxara bilər, bəlkə də Amerikada işığı kəsilən meqapolisin sakinlərindən də betər olarıq. Müasir dünyada əsas həyat amilləri belədir: hava, su, internet...

Gördüyünüz kimi, o gecə işıq, nəqliyyat, su kəsilib, amma internet və yazışma kəsilməyib.

**Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) vitse-prezidenti İbrahim Quliyev yazılı məqalə ilə çıxış edərək, ölkənin su anbarlarının ciddi təhlükəyə səbəb ola biləcəyini açıqlayıb. Alimin sözlərinə görə, Mingəçevir su anbarının kompleksinə daxil olan və Azərbaycan İstilik Elektrik Stansiyasını texniki su ilə təmin edən tuneldə də problemlər mövcuddur: "Qurğunun istismarı Mingəçevir su anbarına və bəndinə ciddi təsir edir, orada baş verə biləcək nasazlıq böyük fəsadlarla nəticələnəcək qəzaların yaranmasına səbəb ola bilər.**



# Mingəçevir su anbarında vəziyyət: təhlükə nə dərəcədə realdır?



Telman Zeynalov



Əzim Məsimov

## Telman Zeynalov: "İstismar müddətindən əvvəl hər hansı bəndin uçması baş verə bilməz"
## Əzim Məsimov: "İstismar müddətinə arxayınlaşmaq olmaz"

Məlumdur ki, 1988, 2006-cı illərdə bu tunelin başlıq hissəsində sürüşmə baş verib. Sürüşmələrin təkrar baş verəcəyi təqdirdə tunelin su qəbuledicinin deformasiyaya uğraması nəticəsində su anbarında qısa bir zamanda su səviyyəsinin enməsi bəndin yuxarı yamacının dağılması ilə nəticələnə bilər".

İbrahim Quliyev həmçinin Ceyranbatan, Şəmkir, Varvara su anbalarındakı təhlükədən və problemlərdən danışıb.

**Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan ekoloq Telman Zeynalov bildirib ki, əslində bütün su anbarlarının istismar müddəti var, bu müddət ərzində bəndlərdə ciddi problem yaşana bilməz:** "Əslində bəndlərə vaxtında baxılmalıdır. Ancaq onu deyim ki, su elektrik stansiyaları (SES) sovetin dönəmində tikilib və həmin zaman bütün nüanslar nəzərə alınıb. SES-lər 60-70 il normal fəaliyyət göstərə bilər və heç bir problem də yaranmaz. Ancaq son dövrlərdə baş verən hadisələrin hamısı baxımsızlıqdan yaranır. Soyuducu sistemə diqqət etmirlər, nəticədə ölkədə işıqlar sönür. Bu cür nəzarətsizlik çərçivəsində terror da ola bilər. Əsas məsələ nəzarət məsələsidir. Qalan şeylər tikinti zamanı nəzərə alınıb. İstismar müddəti olduğu üçün təyin edilən zamandan əvvəl hər hansı bir bənd uçması baş verə bilməz. Sadəcə olaraq, mühərriklərin işləməsinə fikir vermək lazımdır".

**1971-1986-cı illərdə Bakı Baş Tikinti İdarəsinin rəisi və Bakı Şəhər Soveti sədrinin 1-ci müavini vəzifəsində işləmiş Əzim Məsimov isə hesab edir ki, istismar müddətinə aldanmaq olmaz:** "Hər bir mühəndis tikintisinin ömrü var və layihəşdirmə zamanı bu rəqəm qeyd olunur. Lakin bu o demək deyil ki, layihədə qeyd edilən illərə arxayın olub, heç bir iş görülməməlidir. Məsələn, Mingəçevir su anbarı 1 günlüyə, 10 illiyə tikilməyib. Bu layihə ömürlük nəzərdə tutulub. Ona görə də bu su anbarına daim istismar nəzarəti, istismar xərcləri olmalıdır. Bu olarsa, layihənin ömrü ikiqat da arta bilər. Bəndlər tikildikdən sonra bu tikililərdən getdikcə su keçməsi prosesi baş verir. Su da keçdikcə ayrı-ayrı təbəqələr yuyulur. Nəticədə problemlər ortaya çıxır. Məsələn, 2010-cu ildə Kür çayının daşması prosesi eyni məsələdən qaynaqlanmışdı. Kürün ətrafında olan torpaq tökmələri illərlə nəzarətsiz buraxılmışdı. Nəticədə siçovullar və digər səbəbdən bəndlərdə deşiklər əmələ gəlmişdi. Kürün səviyyəsi qalxan zaman deşiklərdən az da olsa su axmağa başladı. Suyun təzyiqindən əvvəllər çox xırda olan deşiklər böyüdü və daşma baş verdi. Nəzarət olsaydı, bu cür hal baş verməzdi. Eləcə də Kür çayının deltasına da nəzarət edilmir. Mən orada olmuş, aparılan işləri şahidlik etmişəm. Belə ki, sovet dövründə həmin ərazidə nəzarət çox yüksək idi. Kürün Xəzər dənizinə axması prosesi təmin edilir, qumları sovuran gəmilərdən istifadə olunurdu. Buna da nəzarət edən xüsusi təşkilat var idi. Ancaq müstəqillik illərində bu təşkilat ləğv edildi. Nəticədə Kürün Xəzərə töküləm yerində gil yığıldı, məlum fəlakətlər baş verdi. Bir yandan bəndlərə nəzarətin olmaması, ikinci tərəfindən deltadakı nəzarətsizlik, Kürün səviyyəsinin qalxıb, ətrafa daşmasına səbəb oldu. Yəni demək istəyirəm ki, doğrudan da bu sistem bizdə nəzarətsizdir".

**Mütəxəssis bildirib ki, hökumət səviyyəsində qərar verilməli, bu cür tikintilərə nəzarət artırılmalıdır:**

"Məsələ burasındadır ki, bilinmir ki, sistemə hansı nazirlik baxır. Əvvəlcə bu məsələni həll etmək lazımdır. Azərbaycanda su ilə bağlı problemlər çoxdur. Bakı və ətraf ərazilərdə məsələ kanalizasiya problemidir. Suyu çəkirlər, kanalizasiya unudulur. Çünki kanalizasiya sistemini qurmaq çətin, suyu çəkmək isə asan məsələdir. Biz ekologiyaya zərər verməklə, əslində milyardlar itiririk və təəssüf ki, bunun da fərqində deyilik. Abşeronun heç 40 faizində belə kanalizasiya sistemi yoxdur. Quba, Xaçmaz, Qusar zonasına su çəkiblər. "Azərsu"nun sədri ötən günlərdə bildirdi ki, biz kanalizasiya sistemi üçün layihə hazırlayırıq. Yaxşı, bu layihə hazırlanana qədər sular hara axacaq? Dağ çaylarına baxırsan ki, bulaq suyu yerinə kanalizasiya axır. Bunun özü də böyük fəlakətdir. Qısa müddət ərzində bu məsələlərlə bağlı qərar qəbul edilib, kanalizasiya sistemi məsələsi həll olunmalıdır. Dənizə suyu təmizlənməmiş buraxırlar, balıqlar ölür. Bax ekologiyaya baxış ümumidir. Bəndlərə nəzarət, dənizə nəzarət hamısı eyni səviyyədədir".

❑ Əli RAİS,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 142 (7031) 4 iyul 2018

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

# Bakı-Moskva münasibətlərində dönüş - Qarabağı nə gözləyir?

## Rusiya ictimai rəyində problemə baxış Azərbaycanın xeyrinə dəyişir - maraqlı gəlişmə; Cocuq Mərcanlı toplantısı ilə bağlı ekspert gözləntiləri...



**Ötən bazar Azərbaycanın işğal altındakı Cəbrayıl rayonunun azad edilmiş Cocuq Mərcanlı kəndində ilk dəfə Rusiyadan olan tanınmış ictimai-siyasi xadimlərin, deputatların iştirakı ilə "Azərbaycan Rusiyanın Cənubi Qafqazda yeganə müttəfiqidir" mövzusunda keçirilən konfrans, qonaqların azərbaycanlı əsgərlərə baş çəkməsi gündəmin mövzularından biri olaraq qalır.**




Məlumdur ki, tədbirdə qonaqlar Qarabağ məsələsi ilə bağlı Azərbaycanın xeyrinə bir sıra mühüm açıqlamalar, bəyanatlar səsləndiriblər. Rusiya Dövlət Duması komitə sədrinin müavini Aleksey Savalyev isə bu yanaşmanın elə prezident Putinin mövqeyi olduğunu söyləyib.

Lakin rusiyalı xadimlərin açıqlamalarını fərqli dəyərləndirənlər da var. Bir çox azərbaycanlı təhlilçilər bunun Moskvanın rəsmi və ya həlledici mövqeyi kimi təqdim etməyin tez olduğunu qeyd edirlər. Motiv isə belədir ki, hələlik Kremlin Qarabağ məsələsində Azərbaycanın xeyrinə ola biləcək hansısa real addımı, hərəkətliliyi gözə dəymir.

Ancaq bu da var ki, sözügedən tədbir Ermənistanda kifayət qədər ciddi narahatlıq yaradıb. Bunu ən əvvəl Kremlin Paşinyan hakimiyyətinə təzyiqi, hətta işğalçı ölkəni müharibə ilə hədələmək kimi yozublar. Konfrans Rusiya mediasının da diqqətini çəkib və öncəliklə Rusiyanın yeni erməni rəhbərliyinə xəbərdarlığı kimi şərh edilib. Gözləyək görək, Rusiya XİN-in rəsmi nümayəndəsi, Azərbaycana antipatiyası ilə fərqlənən Mariya Zaxarova bu həftə keçirəcəyi ənənəvi brifinqdə nə deyəcək, yenə də erməniləri sakitləşdirəcək, yoxsa? Hərçənd Rusiya XİN-in erməni kökənli başçısı Sergey Lavrovun sözçüsünün nə söyləyəcəyini indidən təxmin eləmək çətin deyil.

*****

**Məsələ ilə bağlı daha iki mötəbər rəyi təqdim edirik.**

**"Rusiya bu konfransı Azərbaycanın işğaldan azad etdiyi ərazilərdə keçirməklə Ermənistana çox ciddi mesajlar verib". "Yeni Müsavat" xəbər verdir ki, bu sözləri axar.az-a Strateji və Beynəlxalq Tədqiqatlar Mərkəzinin sədri Eldar Namazov deyib. Onun qənaəticə, Rusiya-Ermənistan birliyinin artıq çat verdiyi hiss olunur.**

"İki ölkə arasında münasibətlər günü-gündən pisləşir. Bizim torpaqlarımızın işğalında rus amili çox böyük rol oynayıb. Rusiyanın dəstəyi olmasaydı, torpaqlarımız heç vaxt işğal olunmazdı. Bu günə qədər bu konfliktin həll olunmaması da məhz Rusiya amilinə görədir. İndi Ermənistan-Rusiya münasibətlərində belə çatların yaranması, ciddi narazılıqların baş qaldırması bizim üçün müsbət haldır. Proseslər bu istiqamətdə inkişaf edərsə, Rusiya hansısa mərhələdə bugünkü Ermənistan hakimiyyətini öz dəstəyindən məhrum edə bilər. Belə olan halda isə Azərbaycan öz torpaqlarını işğaldan azad edəcək", - deyə politoloq qeyd edib.

**E.Namazov başqa maraqlı məqamlara da toxunub:** "Bu konfrans keçirilməzdən öncə Ermənistan prezidenti Armen Sərkisyan ABŞ-a səfər etmişdi. Ermənistanın prezidenti orada 4 gün ABŞ dövlət katibi Pompeonun qəbuluna düşə bilmək üçün gözlədildi. Başqa bir maraqlı hadisəni xatırlatmaq istəyirəm. Hakimiyyətdə çalışdığım dövrdə Heydər Əliyev BMT-nin Baş Assemblyasının iclaslarında iştirak etmək üçün səfərlər edirdi. Həmin səfər zamanı ABŞ-ın prezidenti Bill Klinton idi. Klinton iclasda iştirak etmək üçün Vaşinqtondan Nyu-Yorka 2-3 saatlıq gəlirdi. Bu zaman çərçivəsində Klintonun sadəcə 2, ya da 3 ölkə prezidenti ilə görüşmək imkanı olurdu. Hər zaman Heydər Əliyev həmin 2-3 prezidentin sırasında idi. Ermənistan prezidenti isə indi 4 gündür ki, ABŞ dövlət katibinin qəbuluna düşmək üçün gözləyir. Yəni daim ermənilərin iddiaları onların imkanlarından, resurslarından az olub. Onlar daim xarici dəstəyə ehtiyac duyublar".

**Politoloq vurğulayıb ki, Ermənistanın yeni hakimiyyəti çox ağlasığmaz, reallıqdan uzaq bir konsepsiya irəli sürür və Rusiya da bunu görür:** "Ermənistanın yeni hakimiyyətinin yürütdüyü siyasətə görə, Rusiya onun təhlükəsizliyini təmin etməli, ABŞ isə Ermənistanın iqtisadi inkişafına zəmin yaratmalıdır. Ermənistan öz iqtisadi inkişafını ABŞ-la bağlı görür və buna görə də ABŞ-ın Ermənistana güclü investisiyalar, sanksiyalar qoymasına çalışır. Təbii ki, belə yanaşma nə ABŞ-ı, nə də Rusiyanı qane edir".

**Analitikin əminliyinə görə, nə qədər ki, Ermənistanda Rusiyanın hərbi bazaları var, nə qədər ki, Ermənistan Rusiya ilə hərbi blokdadır, ABŞ bu ölkəyə çox ehtiyatla yatırım qoyacaq.** "Eyni zamanda bu yanaşma Rusiyanı da qane edə bilməz. Çünki Rusiya başa düşür ki, pulu kim verirsə, sabah həmin ölkə də burada söz sahibi olacaq. Ona görə də Ermənistan öz iqtisadiyyatını, gələcəyini ABŞ-la bağlamaq istəyirsə, Rusiya həmin ölkə ilə strateji müttəfiqlik münasibətlərinə son qoyacaq. Bu proses sürətlə gedir...Ermənilərin SSRİ dağıldığı dövrdə başladığı geopolitik intriqalar yenə onların başında çatlayacaq. İndi biz o mərhələyə yaxınlaşırıq", - deyə o əlavə edib.

*****

**"Rusiya siyasi elitasında Azərbaycana, eləcə də Dağlıq Qarabağ probleminin həllinə münasibətdə obyektivliyin ilkin işartıları görünməkdədir". Bu fikir isə sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynliyə məxsusdur. Onun fikrincə, Cocuq Mərcanlı tədbirində səslənən fikirlər Azərbaycan-Rusiya münasibətlərində inqilabi dəyişikliyə səbəb olacaq:** "Xüsusən də Rusiyanın yüksək dövlət rəsmilərinin açıqlamaları göstərir ki, Rusiya-Azərbaycan arasındakı strateji bağlar inkişaf etməkdə və keyfiyyətcə yeni mərhələyə daxil olmaqdadır. Tədbirin Cocuq Mərcanlıda keçirilməsinin prinsipial əhəmiyyəti var. Bununla da açıq mesaj verildi ki, Bakı sülhün, dincliyin tərəfdarıdır və Cocuq Mərcanlıda aparılan dəyişikliklər də bunun bariz sübutudur. Xüsusilə də Duqin və Savelyevin Dağlıq Qarabağ və ətrafındakı rayonların qaytarılmasını birmənalı və açıq dilə gətirməsi birbaşa Moskvanın mövqeyini əks etdirir. Bu, BMT qətnamələrinin ruhuna uyğundur. Rusiya tərəfindən 7 rayonun qaytarılması təklifi Moskvanın erməniпərəst siyasətinə qarşı cəsarətli addım hesab oluna bilər. Belə nəticəyə gəlmək olar ki, səsləndirilən bu fikirlər gec-tez Rusiya xarici siyasətinin prioritetinə çevrilə bilər".

**Politoloq tədbirin həm də Azərbaycan prezidentinin Rusiyaya gözlənilən səfəri ərəfəsində keçirilməsinə diqqət yönəldərək deyib:** "Bu, Əliyev-Putin görüşündə mühüm razılaşmalara şahidlik edəcəyimizdən xəbər verir. Söhbət Azərbaycanla Rusiya arasında əlaqələrin daha yüksək mərhələyə qaldırılmasından gedir. Rusiyalı rəsmilər Azərbaycanın Cənubi Qafqazda Rusiyanın yeganə müttəfiqi olduğunu vurğuladılar. Bu, heç də təsadüfi səsləndirilmiş fikir deyil və hər halda, Kremlin müəyyən dairələrinin mövqeyini əks etdirir. Cəsarətlə deməliyik ki, Rusiya ictimai rəyində ciddi dönüşlər baş verir. Bunu Dağlıq Qarabağ probleminin həllinə doğru dönüş də adlandırmaq olar. Ən başlıcası isə odur ki, Rusiya Azərbaycanla münasibətləri yenidən qurmaq istəyir. Bu yenidənqurma iki ölkə əlaqələrini keyfiyyətcə yeni bir mərhələyə qaldıracaq".

*****

Doğrudur, iki ölkə ictimai-siyasi xadimlərinin birgə keçirdiyi iki konfransla (*bundan əvvəlki Moskvada baş tutmuşdu*) çox uzağa gedən nəticələr çıxarmaq yanlış olardı. Ancaq politoloqların da vurğuladığı kimi, ən azından pozitiv bir proses işə düşüb. Ayrı sözlə, Rusiya ictimai rəyində, xüsusən də onun ziyalı-ekspert kəsimində, Dumada Qarabağ məsələsinə baxışın Azərbaycanın xeyrinə dəyişməkdə olduğunu görməmək mümkünsüzdür. Bunun özü də balaca gəlişmə deyil...



## Döyüş aviasiya vasitələrinin yerdəyişməsi həyata keçirilib

**Azərbaycan ordusunun iyulun 2-də başlamış və 5 gün davam edəcək genişmiqyaslı təlimlərinin planına əsasən, təlimlərdə iştirak edən döyüş aviasiya vasitələrinin yerdəyişməsi həyata keçirilib.**

Musavat.com-un Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadən verdiyi məlumata görə, "həyəcan" siqnalı ilə qaldırılan döyüş aviasiya vasitələri ehtiyat aerodromlarına çıxarılıb. Bununla da hava hücumundan müdafiə vasitələrinin ərazidə yerləşdirilməsi sona çatdırılıb.

YENİ MÜSAVAT
N 142 (7031) 4 iyul 2018

# Bakının icra başçısı müəmması davam edir

## Paytaxtda fors-major hadisələr zamanı ortaya çıxacaq icra başçısının olmamasının yaratdığı suallar

**Məlum olduğu kimi, ötən gün gecə saatlarında Azərbaycanın demək olar ki, bütün bölgələri, o cümlədən paytaxt Bakı qaranlığa qərq oldu. Sonradan məlum oldu ki, ölkədə yaranmış bu problemə səbəb Mingəçevir İES-də baş verən yanğındır. Doğrudur, işıqların sönməsindən bir neçə saat sonra Bakıda və bir sıra bölgələrdə elektrik enerjisinin verilişi bərpa olundu. Lakin əhalinin az qala yarıdan çoxunun yaşadığı, mühüm sosial-iqtisadi əhəmiyyətə malik paytaxt Bakıda elektriklərin kəsilməsi həm bir sıra problemlərə yol açdı, həm də ajiotaja səbəb oldu. Dünyanın bir çox ölkələrində adətən bu cür hallarda şəhər meri önə çıxır və baş verənlər, onun nəticələri və həlli barədə ictimaiyyətə məlumat verir. Lakin göründüyü kimi, ötən gün paytaxtda baş verənlərlə bağlı ictimaiyyət qarşısına çıxacaq şəxs tapılmadı. Ümumiyyətlə, paytaxtda baş verə biləcək hadisələrdə məsuliyyəti öz üzərinə götürəcək məsul şəxs hələ ki yoxdur. Məlum olduğu kimi, 21 apreldə yeni hökumətin təsdiq olunmasından sonra Bakı Şəhər İcra Hakimiyyətinin başçısı postu bu günə qədər boş qalır. Baş nazir müavini təyin olunan Hacıbala Abutalıbou kimin əvəzləyəcəyi də məlum deyil.**

Beləliklə, Bakıda işıqların sönməsi ilə bağlı yaranmış problemlər BŞİH rəhbəri postunun boş qalması məsələsini yenidən aktuallaşdırıb. Bəzi iddialara görə, postun bu günə qədər boş qalmasının səbəbi ilk dəfə olaraq Bakıda da keçiriləcək mer seçkiləri ilə bağlı ehtimallardır. Hansı ki, Cənubi Qafqaz ölkələrindən yalnız Azərbaycanda mer seçkiləri yoxdur. Hətta Ermənistan və Gürcüstanda bütün şəhərlər



üzrə merlər seçilir.

**Mövzu ilə bağlı iqtisadçı ekspert Natiq Cəfərli "Yeni Müsavat"a danışıb:** "Xarici ölkələrdə bu cür hadisələrdə şəhər merləri, rəhbərləri ictimaiyyət qarşısına çıxıb reaksiya verirlər. Lakin çox təəssüf ki, hələ də Azərbaycanda seçilmiş mer institutu yoxdur. Halbuki dəfələrlə bu məsələni gündəmə gətirmişik, geniş müzakirələr aparmışıq. Ən əsası Azərbaycanın Avropa Şurası qarşısında öhdəliyi var ki, mer seçkiləri keçirilməli, Bakı şəhəri üzrə Böyük Şəhər Bələdiyyəsi yaradılmalıdır. Yəni bununla bağlı öhdəlik olsa da bu öhdəlik yerinə yetirilmir.

Qeyd edim ki, bu cür olaylarda, fors-major hadisələrdə seçilmiş mer daha məsuliyyətli olur və həmən vətəndaşlarla təmas qurmağa, problemin çözülməsi üçün atılan addımları izah etməyə çalışır. Buna görə də Bakı şəhərində Böyük Şəhər Bələdiyyəsinin yaranması, mer seçkilərinin keçirilməsi çox bacib və aktual məsələdir və ötən gün baş verən hadisə bunu bir daha sübut etdi. Bu baş verəcəksə, mer daha məsuliyyətli olmağa, ictimaiyyətlə normal münasibət qurmağa çalışacaq ki, növbəti mer seçkisində bir daha seçilsin.

Ümumiyyətlə, şəhər infrastruktu ilə bağlı yaranmış problemlərə cavab verəcək şəxs lazımdır. Son zamanlar yolların təmiri ilə bağlı insanlar əziyyət çəkir. Təmirin nə zaman bitəcəyi, ümumiyyətlə, niyə təmir isti yay aylarında aparılır ki, nəticədə tıxaclar yaranır və sairə bu kimi suallar çoxdur və onlara şəhər meri reaksiya verməlidir".

**Natiq Cəfərli BŞİH rəhbəri postuna təyinatın gecikmə səbəbi ilə bağlı ehtimallardan da söz açıb:** "Çox istərdim, ümid edərdim ki, bu təyinatın gecikməsinin səbəbi ehtimal olunduğu kimi Böyük Şəhər Bələdiyyəsinin yaranması ilə bağlı qanunun hazırlanmasıdır. Əgər bu baş verərsə, çox sevindirici olar.

Yox, əgər bu təyinatın gecikməsinə səbəb daxildəki qrupların namizədləri arasında gedən görünməyən, bizə məlum olmayan rəqabətin nəticəsidirsə, bunun əziyyətini bütün şəhər infrastrukturu çəkir. Düşünmürəm ki, BŞİH-ə rəhbərlik edə biləcək namizəd tapılmasın. Belə namizədlər var. Lakin bu çox böyük post olduğu üçün böyük ehtimalla daxili siyasi qrupların bu post uğrunda rəqabəti gedir və bu təyinat gecikir".

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**

# Xəzəri necə bölək ki, tən gəlsin...

**Rusiyanın xarici işlər naziri Sergey Lavrov bazar ertəsi iranlı həmkarı Məhəmməd Cavadla telefonda Suriya münaqişəsini, V Xəzər sammiti problematikası və ikitərəfli münasibətləri müzakirə edib. TASS xəbər verir ki, bu barədə Rusiya XİN-i məlumat yayıb.**

"Xarici siyasət idarələri rəhbərləri ikitərəfli qarşılıqlı fəaliyyət, beşinci Xəzər sammiti problematikası və Suriya nizamlanmasının bir sıra aspektlərini müzakirə ediblər", - deyə diplomatik nümayəndəlikdən bildirilib.

Bu telefon danışığından sonra ən çox müzakirələrə səbəb iki ölkənin XİN rəhbərinin Xəzər sammitini müzakirə etmələri olub.

Məlumat üçün bildirək ki, Xəzəryani ölkələrin dövlət başçılarının növbəti sammiti bu ilin ikinci yarısında keçiriləcək. Həmin sammitdə Xəzərin statusuna dair Konvensiyasının imzalanması gözlənilir. Sənəd Azərbaycan, Qazaxıstan, Rusiya, Türkmənistan və İran arasında bağlanacaq. Ekspertlər sammit öncəsi Rusiyanın yenidən fəallaşmasının təsadüf olmadığını və Kremlin qısa müddətdə Xəzərin bölünməsi prosesinin başa çatmasında maraqlı olduğunu qeyd edirlər. İndiyə qədər dənizin bölünməsinə ən çox cığallıq edən ölkələr öncəliklə İran, ardınca da Türkmənistandır. Artıq bu narazılığın aradan qaldırıldığı və İranın da müəyyən şərtlərlə razılaşdığı bildirilir. Zəngin neft-qaz yataqlarına sahib Azərbaycanın da bu mərhələdə aktiv olmasının vacibliyi vurğulanır. Bu müzakirələrdə İranın Xəzərin bölünməsində əsas yer alan ölkələrdən olan Azərbaycana qısqanc münasibəti də önə çəkilir.

**Beynəlxalq əlaqələr üzrə ekspert Elşən Mustafayev bildirdi ki, Xəzərin yenidən bölünməsi ilə bağlı müzakirələr, mübahisələr uzun illərdir gedir:** "Beynəlxalq normalara, qaydalara görə Xəzərin hazırkı bölgüsü, əsasən İranı və Türkmənistanı qane etmir ki, bu da sırf hövzədə olan karbohidrogen yataqları ilə bağlıdır. Amma son illər yalnız İran bu məsələ ilə bağlı narazılıqlarını bildirirdi. Türkmənistanla isə danışıqlarda müəyyən razılaşmalar olmuşdu. Bu günə qədər Moskva arada müəyyən manevrlər etsə də, narazı tərəfin yanında heç vaxt olmayıb, eyni zamanda siyasi maraqları üzündən bu problemlə bağlı konkret mövqeyini də





**Elşən Mustafayev:** "Azərbaycanla açıq qarşıdurmaya getmək İrana nə qazandıracaq?"

**Əhəd Məmmədli:** "Azərbaycan Rusiya və İrana güzəştə getməməlidir"

söyləməyib. Amma bu o demək deyil ki , İranın təklif etdiyi variantlarla razıdır. Əslində hazırkı bölgü Rusiyanın da maraqlarına uyğundur. Xəzərin bəlli məsafədə bərabər sahil sularına bölünməsi və əsas hissəsinin isə neytral sulara aid olması təklifi, ilk növbədə, Xəzərin su hövzəsi kimi beynəlxalq statusuna ziddir, həm də bundan Rusiyanın özü də itirəcək. Hesab edirəm ki, İranla olacaq danışıqlarda Moskva bu istiqamətdə konkret işlər görməyəcək, ancaq problemin mövcudluğunu və davam etdiyi mesajlarını verməklə regionda bu məsələnin ondan asılı olduğuna işarələr edəcək. Həll olunmayan problemlərin qalmasında Moskvanın hər zaman maraqlı olması xüsusiyyəti də bizə yaxşı məlumdur. Bilirik ki, böyük transmilli şirkətlər Xəzərin Azərbaycana aid olan hissəsində karbohidrogen resursların işlənməsi ilə ciddi məşğul olurlar. Bu səbəbdən Rusiya öz əli ilə olmasa da, İran və Türkmənistan vasitəsilə zaman-zaman müəyyən narazılıqlar yaradıb. İndiki vəziyyətdə bunun yeri yoxdur. ABŞ və Qərbin İrana olan münasibətinin son vaxtlar daha da kəskinləşməsi, nüvə sazişi müqaviləsindən imtina olunması İranı yaxın gələcəkdə iqtisadi cəhətdən ciddi imtahanlara çəkəcək. Hətta bir çox güclər İrana qarşı hərbi əməliyyatların keçirilməsinə də çağırışlar edirlər. Belə bir vəziyyətdə Azərbaycanla açıq qarşıdurmaya getmək və böyük şirkətləri öz üzərlərinə qaldırmaq İrana nə qazandıracaq? Xəzərin yenidən bölünməsi ilə bağlı irəli sürülən təkliflər çox yerdə müzakirə oluna bilər, amma təklif olaraq da qalacaq. Azərbaycan bütün variantlardan istifadə etməklə Xəzərin statusunun beynəlxalq normalara uyğun təsdiq olunması üzərində dayanmalıdır. Bu normalara görə Xəzər göldür və gölün də bölünməsinin konkret qaydaları var. 5-ci Xəzər problematikası sammitində olacaq müzakirələrdə də bundan öncəki sammitlərdə olduğu kimi biz öz mövqeyimizi qorumalıyıq. Yeri gəlmişkən, Qazaxıstan da bu məsələdə bizi müdafiə edir. Onların mövqeyinin də xüsusi rolu var".

**Politoloq Əhəd Məmmədli hesab edir ki, Xəzərin bölgüsü SSRİ-İran bölgüsünün davamı kimi Rusiyanın maraqlarına cavab verir:** "Kreml tezliklə Xəzər dənizi haqqında müqavilənin bağlanmasını istəyir. Razılaşma əldə ediləndən sonra bu, cəmiyyətə rus diplomatiyasının qələbəsi kimi təqdim ediləcək. Lakin İran sona qədər müqavimət göstərəcək. Rəsmi Tehran Xəzər dənizində özü üçün əlavə üstünlüklər qazanmaq istəyir. Fikrimcə, İran sonda razılaşmanı təsdiqləməyə məcbur olacaq. Türkmənistana gəldikdə isə, bu ölkənin əsas problemi məlum yataqlara görə Azərbaycanladır. Baxmayaraq ki, Azərbaycan bu yataqları Türkmənistana birlikdə işlətməyi təklif edib, bu məsələ hələ də həllini tapmayıb. Bu məsələni iki qardaş türk ölkəsi öz aralarında həll etməlidir. Xəzərin indiki vaxtda bölünməsi Azərbaycanın maraqlarına cavab verir. Ölkəmiz çalışmalıdır ki, Xəzərdə indiki vəziyyət qorunub saxlanılsın. Düşünürəm ki, İran sonda razılığa gələcək. Bu ölkə üçün Xəzər çox əhəmiyyətli mövzudur. İstənilən halda Azərbaycan Rusiya və İrana güzəştə getməlidir".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 142 (7031) 4 iyul 2018

# Saakaşvilinin yaxın adamından “Yeni Müsavat”a açıqlamalar

## Gürcüstanlı deputat: “Hakimiyyət onun qarşısını kəsməkdə davam edəcəksə, o, günün birində başqa yolla qəfil vətəninə qayıdacaq”

**Gürcüstanın keçmiş prezidenti Mixail Saakaşvili hazırkı prezident Georgi Marqvelaşviliyə müraciət edərək, ona vətəndaşlığının geri qaytarılmasını tələb edib. Bu arada, Mixail Saakaşvilinin ABŞ-da yaşayan böyük oğlu Eduard bir neçə gün öncə ailə həyatı qurub. Eduard Saakaşvili əslən yəhudi ailəsindən olan qızla evlənib.**



Mixail Saakaşvilinin lideri olduğu Gürcüstanın Milli Birlik Hərəkatı Partiyasının parlamentdəki deputatı Azər Süleymanov “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, Saakaşvilinin Gürcüstana qayıdışı artıq zərurətə çevrilib. Xalq arasında Saakaşvilinin reytinqi yüksəlməkdədir və insanlar onun gəlişini gözləyir. Hazırkı hakimiyyət də məhz bundan ehtiyatlanır və narahatlıq keçirir: “Gürcüstan əhalisi Mixail Saakaşvili dövrünün qayıtmasını istəyir. İndiki hakimiyyət iş başına gələndən xalqa yalnız boş vədlər verməkdədir. Vədlər yerinə yetirilməyib, geriləmə tendensiyası daim gedib və gedir. Ona görə də artıq xalq boş vədlərə inanmır. Mixail Saakaşvili isə hakimiyyətə gələndə verdiyi vədlərin böyük əksəriyyətini qısa müddətdə həyata keçirmişdi. İndiki hakimiyyət və Bdzina İvanişvili dəqiq bilir ki, Saakaşvili Gürcüstan ərazisinə daxil olduqdan qısa müddət sonra ölkədə xalq onun ətrafında hakimiyyətə qarşı cəmləşəcək və o qalib gələcək. Mən Gürcüstanda vəziyyətin gedişatına əsaslanaraq əminliklə deyirəm ki, gec-tez bu baş verəcək. Mixail Saakaşvili Gürcüstana gələcək və xalq onu yenidən hakimiyyətə gətirəcək. Əgər hakimiyyət Saakaşvilinin qarşısını kəsməkdə davam edəcəksə, o, günün birində hansısa başqa yolla qəfil vətəninə qayıdacaq.

“Gürcü Arzusu” Partiyası artıq nəinki Saakaşvilidən, hətta sıravi insanlardan da qorxmağa başlayıb. Bu gün Gürcüstan əhalisinin cənab Saakaşviliyə böyük ehtiyacı var. Gəlib bircə ay Gürcüstanda yaşasanız, burada istər siyasi, istər iqtisadi, istər sosial, istər milli məsələlərin hansı vəziyyətə düşdüyünü görərsiniz. Elə vəziyyət yaranıb ki, sanki bu gün Gürcüstan yalnız İvanişvilinin və onun qohumlarının vətənidir, sanki burada yalnız onlar yaşamalıdırlar. Digərlərinə qarşı təzyiqlər hər gün artır”.

**Deputat onu da dedi ki, ötən ay Gürcüstanda baş verən mitinqlər bir müddət idi dayanmışdı. Lakin iyulun 2-də axşam saatlarında Daxili İşlər Nazirliyinin qarşısında etiraz aksiyası keçirilib və aclıq elan edilib.**



**A.Süleymanov onun barəsində açılan cinayət işinin də həle qaldığını dedi:** “Bu mənə qarşı qurulmuş təxribat idi. Cinayət işi açıq qalır. Məhkəmənin vaxtı avqustun 5-nə keçirilib”.

**A.Süleymanov M.Saakaşvilinin oğlunun toyuna Gürcüstandakı partiyadaşlarından gedən olmadığını bildirdi və səbəbini belə izah etdi:** “Mixail Saakaşvilinin sadəliyi sevən adam olduğunu hər kəs bilir. Onun övladı da o cürdür. Odur ki, toy çox sadə şəkildə azsaylı adamların iştirakı ilə keçib. Saakaşvili və oğlu bu cür məqsədəuyğun biliblər. Mixail Saakaşvili ABŞ-da yaşamayan heç kimə əziyyət olmasın deyə dəvət etmədi. Dedi ki, bu qədər uzun yol əziyyətini kimsəyə vermək istəmir. Biz də onu övladının ailə qurması münasibətilə təbrik etdik”.

❑ **Etibar SEYİDAĞA, “Yeni Müsavat”**

# “Çakır” Türkiyə mətbuatını niyə qorxudur?

## Əfsanəvi mafiya adamı Türkiyədə yenidən gündəm mövzusuna çevrilib



**Türkiyədə seçki kampaniyası gedişində başlayan Ələddin Çakıcı müzakirələri daha da qızışıb. Ötən gün Kırıkkale respublika prokuroru Ərdoğan Bayrakdar Çakıcıya azadlığa çıxmağı təklif etdiyi üçün vəzifəsindən azad ediləرək Ankara Prokurorluğuna daha aşağı vəzifəyə təyin olunub.**

İddialara görə, Çakıcı yazılı açıqlamasında 16 cür xəstəlikdən əziyyət çəkdiyini və hətta xəstəliyi səbəbindən Ədirnə prokuroru tərəfindən azadlığa buraxılması təklifi edildiyini, ancaq bu təklifdən imtina etdiyini qeyd edib. Bu isə prokuror Bayrakdara baha başa gəlib.

Ancaq bu, Çakıcı ətrafında son günlər baş verən ilk qalmaqal deyil. Seçki kampaniyası gedişində MHP sədri Dövlət Bahçalı Kırıkkale Universitetinin xəstəxanasında müalicə olunan Çakıcını ziyarət edib. Bundan sonra Çakıcı bəyanat yayaraq iqtidardakı “Cumhur ittifaqı” blokunu dəstəkləməyə çağırıb. Daha sonra “Karar” qəzetində haqqında dərc olunan yazıya qəzəblənərək qəzetin baş redaktoru və əməkdaşlarını təhdid edən açıqlama yayıb. Çakıcı tərəfdarlarını onu təhqir edən jurnalistlər barədə tədbir görməyə çağırıb. Çakıcının təhdidi o qədər qorxu yaradıb ki, hökumət jurnalistləri qorumaq üçün mühafizə ayırıb. Daha sonra Çakıcı nisbətən yumşaldıcı açıqlama yayıb.

Bəs həbsxanada olan və 40 illik həbs cəzası almış bir adamın bu qədər sərhədsiz gücü haradandır?

Qeyd edək ki, rəsmi ittihama görə, mütəşəkkil cinayətkarlıqda, silahlı qrup lideri olmaqda ittiham olunan Ələddin Çakıcı əfsanəvi şəxsdir. Hətta onun prototipi filmlərdə çəkilib. Məşhur “Qurdlar Vadisi” serialındakı Çakır obrazının Çakıcının prototipi olduğu bildirilirdi. Bu isə Çakıcının həm də siyasi dairələrlə, dövlət orqanları ilə əlaqələri haqda iddialardan qaynaqlanır.

Ələddin Çakıcı 20 yanvar 1953-cü ildə Türkiyənin Trabzon vilayətində Fındıqlı kəndində anadan olub. Ancaq hələ kisik olanda ailəsi İstanbula köçüb. Milliyyətçi camiə ilə yaxın olan Çakılar 1970-80-ci illərdə davam edən sol-milliyyətçi savaşlarında iştirak edib. Ailənin bir sıra üzvləri, o cümlədən Ə.Çakıcının atası solçular tərəfindən öldürülüb.

Çakıcıya ilk cinayət işi 1970-ci ildə dövlət məmurunu yaralama ittihamı ilə açılıb. Ancaq dəlillər yetərli olmadığı üçün o, istintaqdan sonra azad edilib. Daha sonra Çakıcının adı Milli Kəşfiyyat Təşkilatı ilə əməkdaşlıqda hallanıb və siyasətdə nüfuzlu şəxslərlə yaxınlığı baş verib.

Bəzi iddialara görə, Ə.Çakıcı 1992-ci ildə Türkiyəni tərk edib və Belçika, ABŞ, Cənubi Afrika, Fransa, İtaliya, Yaponiya, Sinqapur kimi ölkələrdə yaşayıb. Ələddin Çakıcı 1998-ci il avqustun 17-də Fransanın Nitsa şəhərində mühafizəçisi Muradi Gülər və sənətçi Səlcuk Uralın qızı olan sevgilisi Aslı Uralla birlikdə yaxalanır. Çakıcının həbs edilməsi dövlət aparatında da gərginlik yaradır. Onun evindən tapılan kasetlərdən sonra Ana Vətən Partiyasından olan nazir Eyup Aşık istefa verməli olur. Səbəb kimi, Aşıkın keçiriləcək əməliyyat haqqında Çakıcıya bilgi verməsi göstərilir. Aşıkla birlikdə DYP-li daxili işlər nazirinin müavini Meral Akşener, Milli İstixbarat Təşkilatının yetkililərindən Yavuz Ataç və Bursalı iş adamı Erol Evcilin də adları ona yardım edənlər sırasında çəkilir.

Fransada 16 ay tamamilə qapalı kamerada saxlanan Çakıcı 1999-cu il dekabrın 14-də öz istəyi ilə Türkiyəyə gətirilir. 2000-ci ildə həbs olunan Çakıcı barəsində çoxlu sayda cinayət işi və qətl ittihamı var. Bunların arasında jurnalistin yaralanması, silahlı hücum, cinayət təşkilatı qurmaq, o cümlədən prezident Rəcəb Tayyib Ərdoğanı təhqir etməkdə ittiham olunur.

Çakıcı özü isə kəşfiyyat orqanları ilə əlaqələrinin olmasından, xarici ölkələrdə Türkiyə dövləti adına çalışmasından danışıb. Ehtimal olunur ki, Çakıcı Türkiyə kəşfiyyatı və “dərin dövlət” adına həmin illərdə Avropa və planetin digər nöqtələrində terrorizmə qarşı əməliyyatlarda iştirak edib. Livan və Yunanıstanda ASALA-ya qarşı həyata keçirilən antiterror əməliyyatlarında iştirak edib. Məlum olduğu kimi, 1970-ci illərdə Avropa və Amerikada Türkiyənin diplomatlarına qarşı ASALA terror təşkilatı tərəfindən silsilə sui-qəsdlər həyata keçirilib. Hətta küçədə belə Türkiyə diplomatları hədəf seçiliblər. Buna cavab olaraq Türkiyə kəşfiyyatı Avropa ölkələrində, o cümlədən Livan və Yunanıstan kimi ASALA-nın mərkəz ölkəsində erməni terroruna qarşı kontr-terror aktları həyata keçirib. Kəşfiyyata çalışan bir sıra şəxslər terrorçuları öz üsulu ilə cəzalandırıb. Bu aksiyalar nəticəsində erməni terrorizmi ciddi zərbələr alıb və türkiyəli diplomatlara qarşı hücumları dayandırıb. Bu prosesdə birbaşa dövlət işçisi olmadan dövlət adına çalışanlar arasında nüfuzlu mafia adamları Ələddin Çakıcı və Abdullah Çatlı da olub. Bu səbəbdən də Çakıcı və eləcə də dünyasını dəyişmiş Çatlı bir sıra dairələrdə cinayətkar deyil, dövlət adamı, qəhrəman hesab olunurlar. Bundan başqa, məhz bu səbəbdən “içəridə” olmasına baxmayaraq Çakıcının ciddi nüfuzu və təsir imkanları var.

❑ **Kənan RÖVŞƏNOĞLU, “Yeni Müsavat”**

**Dünyada yay turizmi başlanıb. İnsanlar zövqləri, arzuları və imkanları çərçivəsində dünya ölkələrinə səyahət edirlər. İsti ölkələrdə yaşayanlar sərin yerlərə, sərin ölkələrdə yaşayanların dəniz, qum ikilisinin olduğu isti yerlərə getməsi təbiidir. Amma bəzi ölkələr turistlərlə bağlı qadağalar tətbiq edib. Bu qadağaları bilmədən həmin ölkələrə səyahət etmək də məntiqli görünmür.**



# Turistlər üçün qadağalar-bunları bilmədən səyahətə çıxmayın

## Elə ölkə var ki, orada hətta sellofan torbadan istifadə belə qadağan olunub

**Şimali Koreyaya getmisizsə, bunları da bilməlisiz**

"Yeni Müsavat" dünya mediasına istinadən həmin qadağaları toplayıb. Başlayaq **Şimali Koreyada** turistlər üçün bir sıra qəribə qadağalar mövcuddur. Ölkəyə gələn hər bir şəxs mütləq şəkildə bu qadağalarla tanış olmalı və əməl etməlidir.

Belə maraqlı qadağalar arasında əl sıxıb görüşmək, salamlaşmaq da yer alır.

**Ölkədə icazə verilən və qadağan olunanlarla bağlı qısa xülasəni təqdim edir:**

Ölkəyə göyərçinlərin, altı dəfədən çox böyütməyə imkan verən binoklların, radio və radio avadanlıqlarının; ticarət markası və xülasəsi olmayan dərmanların; qızıl, gümüş və qiymətli daşların idxalı qadağan edilib. Turistlərin insanların və binaların çox yaxından şəklini çəkməsinə də icazə verilmir. Məsələn, Pxenyanda.

Şimali Koreyada mobil əlaqə qadağan edilib. Buna görə də ölkəyə gələn turistlərə mobil telefonları təhvil vermək təklif olunur. Ölkədən çıxarkən telefonlar onlara geri qaytarılır.

Həmçinin ölkədə internet yoxdur. Yalnız daxili əlaqə üçün "intranet" mövcuddur.

Pxenyan hava limanında çıl-çıraq yoxdur. Yalnızca "böyük müəllim" Kim İr Senin şəkli işıqlandırılır. Axşamlar şəhər demək olar ki, ümumiyyətlə işıqlandırılmır.

Kim İr Sen artıq 20 ildir ki, ölməsinə baxmayaraq, Şimali Koreyanın daimi prezidenti hesab olunur.

Dövlətin rəsmi siyasəti ateizmdir. Bütün dinlər XX əsrin 50-ci illərində qadağan olunub. Buna baxmayaraq, ölkədə konfutsi fəlsəfəsinə inam mövcuddur.

Şəhər küçələrində reklam lövhələrinə rast gəlmək demək olar ki, imkansızdır. Təkcə Koreya-Yaponiya birgə istehsalı olan avtomobillərin bir neçə reklam lövhəsi var.

Turistlərə adi məktəb və mağazalara giriş qadağandır. Onlar küçələrdə yerli bələdçilər olmadan gəzə bilməzlər. Qonaqları hər yerdə tərcüməçilər müşayiət edir. Yeri gəlmişkən, Şimali Koreya sakininin geyimində mütləq şəkildə Kim İr Senin partiya şəkli atributu kimi istifadə olunmalıdır.

Şimali Koreya diktatoru Kim Yunq İn ölkəyə gələn azsaylı turistlərə foto çəkməyi qadağan edib. Qeyd edək ki, Şimali Koreya qapalı rejimlə idarə olunduğundan ora turistlərin getməsi daha çətindir. Cəmi bir neçə ölkənin vətəndaşları Şimali Koreyada nisbətən azad gəzə bilər. Avropa və Amerika qitəsi, eləcə də Afrika ölkələrindən gələn turistlər xüsusi icazə sənədi əldə etdikdən sonra Şimali Koreyaya gələ bilərlər. Hətta bundan sonra da onları ölkənin xüsusi təhlükəsizlik xidməti əməkdaşları izləyir. Çəkdikləri fotoları yoxlayır, bir sözlə, addımbaaddım onunla olur.

Lakin diktator Kim Yunq In hətta nəzarətdən keçən fotolardan belə qorxuya düşüb. Bundan sonra Şimali Koreyada fotoaparatdan istifadə edən turisti ağır cəza gözləyir.

**Malayziyada uyğunsuz geyimlər qadağandır**

**Malayziyanın** kurort ştatı hesab edilən Trenqanu əcnəbi turistlərə "uyğunsuz geyimlər"dən qaçmağa dair çağırış edib. Yeni təlimata əsasən, qadınlar həddən artıq açıq-saçıq geyinməməli və açıq çimərlik paltarlarından çəkinməlidirlər. Hərçənd bir çox turist bura Cənubi Çin dənizinin çimərliklərində gözəl peyzajdan zövq almağa gəlir.

Tövsiyələr arasında yerli qadın müsəlmanların fikirlərinin öyrənilməsi də yer alıb. Bununla belə, hökumət İslam normalarına uyğun geyinməyi tələb etmir və normaları pozmağa görə cinayət məsuliyyəti ilə hədələmir.

**Sinqapurda** küçədə saqqız çeynəmək qadağandır. Pul və ya həbs cəzası ilə nəticələnir. Sinqapurda yerə 3 dəfə zibil atsanız, üzərində "mən ətrafı çirkləndirirəm" yazısı olan önlüklə bazar günləri küçələri təmizləməli olacaqsınız. Taylannda küçəyə çeynənmiş saqqız atan 600 dollar ödəyir. Cəriməni ödəməyəni həbs cəzası gözləyir. Avstraliyada uşaqların siqaret alması qadağandır. Amma onların siqaret çəkməsinə icazə var. Meksikada cəmiyyət içində yüksək səslə söyüş söymək olmaz. Pensilvaniyada hamamda mahnı oxumaq olmaz. Səudiyyə Ərəbistanında din dəyişmənin cəzası ölümdür.

**Amsterdamda bəzi küçələrdə çəkiliş etmək olmaz**

**Niderlandın** Amsterdam bələdiyyəsi ekskursiya qruplarının Qırmızı fənərlər küçəsinə ziyarətini sərtləşdirən qərar qəbul edib. Bu barədə şəhər hökumətinin rəsmi informasiya portalından məlumat verilir. 2018-ci ilin aprel ayından etibarən beş nəfərdən çox olan qruplar "seks sənayesinin" işçilərini görmək üçün meriyadan xüsusi icazə almalı olacaqlar. Bundan əlavə, bu küçədə turistlərə spirtli içki və narkotik maddələrin qəbulu qadağan olunacaq. Ən əsası dəyişiklik isə ondan ibarətdir ki, turistlər vitrindəki fahişələrə baxa bilməyəcəklər.

Qırmızı fənərlər küçəsində həmçinin fotoçəkilişə rəsmi qadağa qoyulur. Ekskursiyalar saat 23:00-da qurtaracaq. Ekskursiyadan əvvəl bələdçi turistlərdən yerli sakinlərə, iş adamlarına və fahişələrə hörmətlə yanaşmağı tələb edəcək.

Qaydalara riayətə görə məsuliyyəti ekskursiya bələdçiləri daşıyacaqlar. Qayda pozuntusuna görə sərbəst bələdçilər 190 avro, turizm şirkətlərinin akkreditasiyadan keçmiş bələdçiləri isə 950 avro məbləğində cərimə olunacaqlar. Üç qayda pozuntusundan sonra bələdçi lisenziyasından məhrum ediləcək.

Hollandiya hakimiyyəti xarici vətəndaşların marixuana almalarının qadağa olunması işinə baxır. Turistlərin kofe-şoplarda marixuana almalarını hökumət qadağan etmək istəyir. Bu barədə Reuters agentliyi xəbər verib. "Bu turist diqqət layiqliyi deyil. Bizim bundan xoşumuz gəlmir"-deyə, İctimai təhlükəsizlik və ədliyyə naziri İvo Opstelten bəyanat verib. Nazir izah edib ki, kofe-şopların mövcud olması, narkotik satış sistemində uzaq nöqtələrə çatdırma mərkəzi kimi qəbul edilir. Nazir "Biz mövcud olan kofe-şop sistemini göndərmə nöqtəsi kimi qəbul edirik. O kamil deyil. Digər əlaqələrdə biz onu idarə etməliyik"-deyib. Bugünkü gün Hollandiyada yüngül narkotik maddələrin satışına məhdudlaşdırma sistemi dünyada daha da liberal qarşılanır.

**Tailandda və daha hansı ölkələrdə...**

Tailandda bu il fevralın 1-dən "Çimərliklərdə siqaret çəkilməsinin qadağan olunması haqqında" qanun qüvvəyə minib. Yeni qanuna görə, çimərliklərdə qadağaya məhəl qoymayan sakinlər və turistlər üç min dollardan çox məbləğdə cərimələnəcək. Qadağa bütün növ tütün məmulatlarına, o cümlədən elektron siqaretlərə tətbiq olunur. Rejiminin ölkənin 24 populyar çimərliklərində qüvvədə olacağı bildirilir. Turistlər bundan sonra çimərliyə daxil olmazdan əvvəl yanan siqaret və ya çəkilmiş siqaret kötüklərini girişdə qurulacaq xüsusi qablara atmalı olacaqlar.

Qeyd edək ki, Tailanda turist axını ildən-ilə artır. 2018-ci ildə bu ölkəyə 37.5 milyon turistin səyahət edəcəyi təxmin edilir. Siqaret qadağası haqqında qanun ötən ilin noyabrında qəbul olunub.

Qrenada da çimərlikdən başqa digər yerlərdə çimərlik geyimində gəzmək qadağandır və buna görə 270 dollar cərimə müəyyən olunub. Yerli turizm nümayəndələri bunu kifayət qədər ciddi bir qanun hesab edir və turistlərdən bu qanuna uymağı tələb edirlər. Bu qanuna səbəb çimərlik geyimində olan turist qadınların yerli əhalinin diqqətini cəlb etmələri hesab olunur.

**Fənərləri sönülü halda avtomobilin idarə olunması (Danimarka, Çexiya)**

Bu ölkələrdə yağışın, qarın yağmasından, parlaq günəşin olmasından asılı olmayaraq idarə etdiyiniz avtomobilin fənərləri yanılı olmalıdır. Bu nə qədər qəribə görünsə də hər kəsdən bu qanuna diqqət tələb olunur və bu qanun da əsassız deyil. Araşdırmalar göstərmişdir ki, sürücülər ətrafdakı maşınların fənərləri yanılı olduqda onların hansı manevrləri etmək istədiklərini daha yaxşı anlayırlar. Bu qanun adıçəkilən ölkələrdə bədbəxt hadisələrin sayının azaldılmasına kömək edir.

**İtaliyada** olan turistlər Venesiyanın gözəlliklərini seyr edə, qondolalarda səyahət edə, muzeylərə baş çəkə bilərlər. Lakin heç bir halda onlar göyərçinləri yemləyə bilməzlər. Bu ilk baxışdan zərərsiz quşlar İtaliyanın baş bəlasına çevrilib. Şəhər bələdiyyəsi ev və abidələrin üzərlərini göyərçinlərin ifrazatından təmizləmək üçün xeyli pul xərcləyir. Bu qanuna uymayaraq göyərçinləri yemləyənləri 50-60 avro cərimə gözləsə də bəzi hallarda bu cərimələr 600 avroya qədər də ola bilir.

**Vağzallarda öpüşmək (Fransa, Böyük Britaniya)**

Dünyanın ən romantik ölkəsində vağzallarda öpüşmək qadağandır. Bu qanun 1910-cu ildə qəbul olunub. Zaman və münasibətlərin dəyişməsinə baxmayaraq bu qanun hələ də qüvvədədir. Bu qanun ilk növbədə qatarların gecikməsini əngəlləmək üçün nəzərdə tutulmuşdu. Vağzallarda belə hadisələr bağışlanılmazdır və ən müsbət halda sevgililərdən vağzalı tərk edərək avtodayanacağa getmələri tələb olunur.

**Tərliklə gəzmək olmaz, sellofandan istifadə etmək olmaz - olmazlar ölkəsi...**

**Burundidə** səhərlər qaçmaq qadağası var. Bu, bir müharibəyə hazırlıq kimi qəbul edildyi üçün qaçdığınız təqdirdə barənizdə cinayət işi açılır. İtaliyanın Capri adasında isə tərlik qadağası var. Səbəb isə sahildə uzananları ayaq səsləri ilə ilə narahat etməkdir. Kolumbiyada isə UBER kimi taksi xidmətləri qadağandır. Ölkədə taksi ticarəti böyük bir əhəmiyyət kəsb edir və güclü tərəf taksiçilər olduğu üçün insanlara rahatlıq təmin edən bir çox tətbiq burada qadağandır. Kanadanın bəzi bölgələrində fit çalmaq qadağandır. Səbəbi isə bunun cadu rituallarında istifadə olunmasıdır. Keniyada sellofanlardan istifadə qadağandır. Ətraf mühitin çirkləndirilməsinə səbəb olan bu paketlərdən istifadə etməyin ciddi cəzası var.

❑ **Sevinc TELMANQIZI,**
**"Yeni Müsavat"**

**Elan**

**İmaməliyev Oqtay Mürsəl oğluna məxsus Nəsimi rayon Mircəlal küçəsi 58, mənzil 52, ünvanında yerləşən mənzilin çıxarışı və texniki pasportu itdiyi üçün etibarsız sayılır.**

YENİ MÜSAVAT
N 142 (7031) 4 iyul 2018

**Rusiyanın 1\8 finalda İspaniyanı mübarizədən kənarlaşdırması gözlənilən idi. İspaniya bu mundiala hazırlıqsız gəlmişdi, artıq köhnəlmiş, həm də futbolun həyəcanını öldürən paslaşma ilə bundan uzağa getmək olmazdı. İspanların məğlub ola biləcəyini proqnozlaşdırmışdım və nə yaxşı İspaniya da üzüsulu getdi...**



# Rusiya millisinin uğurunun sirri-oyunçulara çip qoyulub

## İspaniyanı ruslara işləyən ispan uduzdurub; Rusiya komandası “fizika” deyilən məşqlərlə irəli gedir…

Rusiya millisinin baş məşqçisi Stanislav Çerçesov oyundan dərhal sonra maraqlı bir açıqlama verdi. Məzmunu bu idi ki, bizim taktikamız fərqli idi. İspanların isə yenə topa nəzarət edəcəyi məlum idi və biz ancaq “top sizə nuş olsun” deyə bilərdik. Çerçesov bu ironiyada tam haqlıdır, İspaniya ən yaxşı bacardığını göstərdi, sanki məşqdəki kimi elə hey paslaşdılar, canımızı sıxdılar. Rusları isə bu taktika ilə yormaq mümkün olmadı. 120 dəqiqə dayandılar. Səbəbi? İnanmazsız, ispaniyalıdır. Hansı ispaniyalı soruşsanız? Rusiya millisinin fiziki (məşqçilər buna “fizik” deyirlər) hazırlığından görəvli Paulino Qranero...

Onun adı İspaniya millisinin oyunçuları kimi məşhur deyil. Amma o, hazırda 1\4 hazırlaşan Rusiya millisini daha bir rus həmkarı ilə bu cür vəziyyətə gətirib. Rusiyanın oyunlarına əvvəl də baxmışıq, komanda ikinci hissənin əvvəlindən yoruludur. Amma bu mundialda taktika baxımından yenə geri qalan, fiziki hazırlığı isə qabarıq görünən bir Rusiya millisi var. Xatırlayan varsa, Uruqvayla oyun ərəfəsi belə yazmışdım: “Rusiya millisində təkcə "dumanlı rus başı" işləmir".

Rusiya İspaniyanı “ələyəndən” sonra Rusiya millisi haqda yazmamaq fürsəti əldən vermək olardı. Məncə, bu, Rusiya millisinə azarkeşlik edənlər, bu komandanı bəyənməyənlər üçün də maraqlı olacaq...

***

Rusiya mətbuatı Səudiyyə Ərəbistanı oyunundan sonra belə bir statistika yazmışdı. Milli komanda oyunda ümumi olaraq 114 kilometr məsafə qət edib. Misirlə oyunda isə 115 km. Ruslar o vaxt iddia edirdi ki, mundialda ən yaxşı göstəricidir. İkinci sırada isə Serbiya millisidir-116 km. Müasir məşqçilər son 7-8 ildə oyunçunun meydanda nə qədər məsafə qaçmasının futbola aidiyyəti olmadığını deyirlər. Onlar hər bir oyunçunun sürəti, dayanması və cinahları dəyişməsinə diqqət edirlər. Ancaq qaçma məsafəsi istənilən halda diqqətdədir və bu mundialda da oyundan sonra o statistikanı da ekranda göstərirlər.

### İki “fizik”- biri rus, biri ispan...

Rusiya millisinin fiziki hazırlığına iki məşqçi görəvlidir. Yerli mütəxəssis Vladimir Panikov və ispaniyalı Paulino Qranero. Sonuncunu ÇSKA Rusiyaya bir neçə il əvvəl dəvət edib və həm də orada görəvlidir. Formal olaraq Panikov milli komanda da rəhbər, ispaniyalı isə onun köməkçisidir.

Panikov bir neçə il əvvəl Almaniyada təkmilləşmə kursunda olub. Fiziki hazırlıqla bağlı Avropa klublarındakı təcrübəni öyrənib. Avropadan qayıdanda dükan-bazardan aldıqları ilə deyil, fiziki hazırlıqla bağlı kitablar gətirib. Panikov deyir ki, milli komandada Qraneronun onun köməkçisi adlandırılması formal prosedurdu, sadəcə, gördükləri işə görə onlar bir-birini tamamlayırlar.

Panikov Rusiya milli komandasının baş məşqçisi Çerçesovla uzun müddətdir işləyir. Rusiya mətbuatı çəkinmədən onu “Çerçesovun adamı” adlandırır ki, bu da təsadüfi deyil. Onlar Çerçesovun “Jemçujina” klubuna rəhbərlik edəndən bir yerdə işləyirlər. Çerçesov Polşanın “Legiya” klubunda baş məşqçi olanda da Panikovu özü ilə Polşaya aparmışdı.









Panikov ötən il “Avro2016”da iştirak edən komandaların fiziki hazırlıq göstəricilərini təhlil edib. Bir sanballı elmi iş kimi... Onun Rusiya Futbol Federasiyası üçün hazırladığı sənəd federasiyanın saytına yerləşdirilib. Panikovun təhlilindən gəlinən nəticə bu olub ki, böyük turnirlərə hazırlaşan komanda müdafiədə də, hücumçuda da maksimal gücdə oynamalıdır. Komanda böyük çempionatdakı oyunlarda gücünü bərabər səviyyədə sərf etməlidir. Yəni bir oyunda özünü ”öldürüb", o biri oyunda yox olmamalıdır.

Panikov dünya çempionatından bir neçə ay əvvəl Rusiyanın qrupdakı ilk rəqibi Səudiyyə Ərəbistanı komandasının oyunçularını təhlil edərək o nəticəyə gəlir ki, ərəblər ruslardan fiziki cəhətdən güclüdür. Panikov deyib ki, rus futbolçusunda əsas problem əzələnin zəif olmasıdır. Panukov təklif edib ki, millinin oyunçuları klublarında əzələlərini möhkəmlətmək, “ətləndirmək” işini görsünlər. Ruslar beləcə mundiala hazırlığa başlayıblar.

Məşqçi özü deyir ki, oyunçulara qidalanmada xüsusi qadağaların tərəfdar deyil, bu işdə hər bir futbolçuya fərdi yanaşmaq lazımdır. “Bir müddət əvvəl komandaya diyeta tətbiqi ona gətirib çıxartdı ki, oyunçular məşqdən sonra yaxınlıqdakı McDonaldsı işğal edirdilər” deyə, Panikov xatırlayır.

Panikov futbolçuların kross qaçışlarını da o qədər faydalı hesab etməyərək, millinin məşq planından çıxardıb. Onun fikrincə, futbolçu buna sərf etdiyi enerjinin əvəzində meydanda topla vacib vərdişləri mənimsəməlidir.

### Sirli ispan

İspan mütəxəssis Paulino Qranero 2010-cu ildən ÇSKA-dadır. Buna qədər o, İspaniyanın “Betis” və Səudiyyə Ərəbistanın “Əl İttihayə” klubunda “fizik” işləyib. Fabio Kapello Rusiya millisinə rəhbərlik edəndən o da komandaya cəlb edilib. Çerçesov millinin sükanı arxasına keçəndə Qraneronun komandadan gedəcəyini də deyirdilər. Amma o, Çerçesovla anlaşdı.

Qranero Rusiya millisində fanatı olduğu nanotexnologiyanın tətbiqinə başlayır. O, oyunçuların gödəkcəsinə (bunu ilk dəfə ÇSKA-da tətbiq edib) akselerometr adlanan çip-datçiklər yerləşdirməyi təklif edib. “Necə yanı datçik?” ruslar təəccüblənibələr.

Bu çiplər məşqçi heyəti komandanın hər bir üzvünün məşqlərdə gördüyü iş əmsalını, sərf etdiyi enerjiyə nəzarətə imkan verir. Rusiyada əvvəl ona gülüblər, o isə bu texnologiyanın qəbulunda israr edib. İndi Rusiyanın əksər klubları bu akselerometri tətbiq edirlər.

**Akselerometr haqda onun “İzvestiya”ya dediklərinə diqqət edək:** “Akselerometr kompleks bir cihazdır. Bu cihaz futbolçunun məşq zamanı qət etdiyi məsafədən tutmuş çoxsaylı göstəricilərini əldə etməyə imkan verir. Məsələn, futbolçu məşqdə nə qədər hərəkət edib, hərəkəti edəndə hansı sürətdə olub və sair... Bizim üçün futbolçunun o hərəkətləri edərkən ürək ritminin vəziyyəti də çox vacibdir. Hər məşqdən sonra biz diqqətlə hər bir futbolçunun nəticələrinin təhlil edirik”.

**Milli komandanın çempionata fiziki cəhətdən nə qədər hazır olması barədə suala Qranero bir müddət əvvəl “100 faiz” deyə cavab verib. Komanda 1\8 mərhələyə keçəndən sonra Qranero daha ürəkli danışıb.** “Komanda fiziki cəhətdən ”pley-off"a tam hazırdır. Biz individual olaraq Rusiya çempionatında ən yaxşılarını komandaya cəlb etdik və onlarla işlədik".

Qranero deyib ki, komandada hər bir oyunçunun hansı fizik göstəriciyə malik olduğunu, nə zaman yorula biləcəyini daha yaxşı bilirlər, üstəlik bir sıra enerjili gənc oyunçular hələ meydana buraxılmayıb..

Məşqçi deyib ki, “pley-off” arası fasilələr oyunçuların fiziki cəhətdən bərpa olunmasına kömək edir.

Rusiya indi Xorvatiya ilə 1\4 oyuna hazırlaşır. Qarşıdakı günlərdə bu haqda yazacağıq...

❑ **Nazim SABİROĞLU, “Yeni Müsavat”**

# YENİ MÜSAVAT

## Son səhifə

N 142 (7031) 4 iyul 2018




## Müalicə olunmaq istəməyən qız üçün məhkəmə qərarı

Amerikanın Konnektikut ştatında məhkəmə 17 yaşlı qızın məcburi qaydada kimyəvi müalicə alması üçün qərar çıxarıb. Bu barədə lenta.ru saytı xəbər verir. Kassander soyadlı qıza xərçəng diaqnozu qoyulandan sonra ona kimyəvi müalicə kursu yazılıb. Gənc qız isə hesab edir ki, bu müalicə onun səhhətinə daha böyük zərbə vuracaq, nəinki xəstəliyi. Qızını atasız, təkbaşına böyüdən anası Ceki Fortin isə bildirib ki, qızının mövqeyi ilə razıdır və onu dərmanla zəhərləməyə icazə verməyəcək. Kassandra özü isə iki kimyəvi müalicə prosedurundan sonra tibb mərkəzindən qaçıb. Mərkəzin rəhbərliyi isə onunla bağlı öncə valideynlərinə, ardınca isə məhkəməyə müraciət edib. Həkimlər bildirib ki, əgər xəstə onların tövsiyələrinə əməl etsə, sağalma şansı 80-85 faizdir. Məhkəmə də son nəticədə xəstəxananın tələbini yerinə yetirən qərar çıxarıb. Ana-qız isə konstitusiya hüquqlarının pozulduğunu iddia edərək, qərardan şikayət ediblər.

## Londonda göyərçinlər insanları vanna otağında güdür

Londonun Uondsvort rayonunda əhali "özündən razı" və "həyasız" göyərçinlərin əlindən şikayət edib. Buna səbəb onların əhalinin evini gizlicə müşahidə etməsi olub. Sakinlər iddia edir ki, göyərçinlər davamlı olaraq onların pəncərəsindən içəri girir. Baxmayaraq ki, hər binanın qarşısında sakinlərə müraciətlə evlərin pəncərələrini bağlı saxlamaları barədə xəbərdarlıq edilib. Bu cür isti havalarda isə sakinlər evlərinə göyərçin girməsin deyə pəncərələrini bağlı saxlayırlar və istidən nəfəs ala bilmirlər. Sakinlərdən biri deyib ki, göyərçin onu daim vanna otağında olanda izləyiblər.



Digər sakin isə deyib ki, bu, "göyərçinlərin hakimiyyət uğrunda mübarizəsidir". O, hətta bu situasiyanı Alfred Hiçkokun "Quşlar" filmi ilə müqayisə edib.

## Qızın üzü dayanmadan şişir

Herediter anjioödem xəstəliyi 20 yaşlı Lauren Farley-Smith adlı qızın həyatını kabusa çevirib. Belə ki, bu xəstəlik qızın üzünün normal ölçüsündən iki dəfə artıq şişməsinə səbəb olub. "Daily Mail"də yayımlanan xəbərə görə, nadir görülən xəstəliyin ilk simptomları Laurenin ərgənlik dönəmində özünü göstərib. Qalıcı bir qan xəstəliyi olan herediter anjioödem bədəndəki şişkinliklərə, davam edən qusmalara və kəskin qarın ağrılarına səbəb olmaqla yanaşı, həyati təhlükə də daşıyır. Stress və narahatlıq xəstəliyin irəliləməsinə səbəb olduğu üçün gənc qız tez-tez meditasiya ilə məşğul olur və həkim köməyi alır. Yad insanların baxışları və rəyləri ucbatından depressiyaya girən, antidepresandan istifadə edən Lauren keçən il xəstəliyə məğlub olmayacağı ilə bağlı öz-özünə söz verdi və indi uşaqlıq xəyalı olan stüardessalığa hazırlaşır. Nadir görülən, qalıcı xəstəlik olan herediter anjioödem bədənin müxtəlif əzələlərində şişmələrə səbəb olur. Bəzi insanlarda bu şişkinlik hər ay baş tutsa da, bəzilərində bir neçə aydan bir, ya da ildə bir dəfə baş verir.



## Bu kafedə 1 saat oturmaq 9 dollardır

Yaponiyanın paytaxtı Tokio şəhərində açılan kafe öz qəribəliyi ilə diqqət çəkir. Belə ki, bura gələn müştərilər kafedəki kirpilərlə oynaya bilirlər. Bu barədə lenta.ru saytı "The Guardian"a istinadən xəbər verib. Kafedə bir saat oturmaq üçün həftəiçi 9, həftə sonları isə 12 dollar ödəmək lazımdır. İçəridə 20 növə yaxın kirpi saxlanır. Heyvanlar şüşə qutularda saxlanır və onların hər birini ələ götürmək mümkündür. Kafenin əməkdaşı Mizuki Murata deyir ki, daha öncə dovşanlı kafedə çalışsa da, kirpilərlə vaxt keçirmək onun ən böyük arzusu olub. "Biz bu layihə ilə insanlara sübut etmək istədik ki, iynələrinə baxmayaraq kirpilər çox şirin heyvanlardır. Ümid edirəm ki, biz qonaqlarımızı onlara toxunmaq qorxusundan azad edə biləcəyik".

2015-ci ilin noyabrında isə Britaniyanın Bristol şəhərində pişiklər üçün pub açılmışdı. Kafenin 44 yaşlı sakini Lyuk Deniels demişdi ki, elə 15-ə yaxın pişik bu məkanın divarları arxasında doğulub.




**QOÇ** - Göy qübbəsi nahara qədər müəyyən gərginliklə üzləşəcəyinizi bildirir. Yaxşı olar ki, həmin vaxt təmkin göstərib adi işlərlə məşğul olasınız. Sonrakı ərəfə isə çox uğurludur.

**BUĞA** - İxtiyarınızda olan bu gözəl təqvimdə falçı və ya cadugərlərə üz tutmaqdansa Allaha xoş gedən addımlar atın. Ulduzlar bu gün maddi irəliləyişlə bahəm, maraqlı tanışlıqlardan da xəbər verir.

**ƏKİZLƏR** - Əsas gücünüzü sevgi amilinə yönəldin. Çünki qarşı tərəflə aranızda ciddi anlaşılmazlıqlar var. Ulduzlar səmimi və mehriban olmağı tövsiyə edir. Uzaq səfərə hazırlaşmağa dəyər.

**XƏRÇƏNG** - Proqnozlara görə bu gün hava çox isti olacaq. Bu səbəbdən də günün ilk yarısını daha çox istirahətə həsr etməlisiniz. Sonrakı müddətdə isə iyul planlarınızı bir daha götür-qoy edin.

**ŞİR** - Ailə-sevgi münasibətlərində olan gərginlik tədricən qaydasına düşəcək. Artıq ünsiyyətdə olduğunuz hər kəs sizi anlamağa başlayacaq. Fəaliyyət zəminində riskli və təhlükəli addım atmayın.

**QIZ** - Köhnə fikir və ideyalara bir daha nəzər yetirin, buraxdığınız səhvlərdən nəticə çıxarın. Ətrafınızda olanların rəğbətini qazanmaq gün ərzində başlıca vəzifənizə çevrilməlidir. Hər hansı səfər uğurlu deyil.

**TƏRƏZİ** - Yarımçıq işlərinizi yekunlaşdırmaq üçün daxili potensialınız artacaq. Bu istiqamətdə sizə dəstək verənlər də olacaq. Heç də hamıya şübhə ilə yanaşmayın. Şəxsi büdcənizi qoruyun.

**ƏQRƏB** - İradənizə hakim kəsilib dinə zidd hərəkətlərə yol verməyin. Bununla siz ürəyinizdə olan saf arzularınızın gerçəkləşməsini sürətləndirə bilərsiniz. Nahardan sonra səfərə çıxmaq olar.

**OXATAN** - Fəaliyyət müstəvisində çox uğurlu vaxtdır. Aldığınız hər bir təklifə müsbət yanaşın. Bütün mənbələr maddi durumunuzda irəliləyişlər olacağını göstərir. Münasibətlərə fikir verin.

**OĞLAQ** - Yaxşı olar ki, bu gün kiməsə yalan vədlər verməyəsiniz. Günün ikinci yarısında sizə ehtiyacı olan yaxınlarınıza baş çəkməyə çalışın. Büdcənizdə artım da gözlənilir.

**SUTÖKƏN** - Başqalarının şəxsi işinə qarışmaq, dedi-qoduya əhəmiyyət vermək, riskli pul yatırımları etmək sizi təhlükəyə ata bilər. Ulduzlar fəaliyyətdə və ünsiyyətdə hər şeyin ürəyinizcə olacağını bildirir.

**BALIQLAR** - Xarakterinizə münasib olan Ay gün boyu bürcünüzdə qərar tutduğu üçün bu gün sizə əlavə enerji verəcək. İstənilən söhbətdə ədalət prinsiplərini qoruyun. Axşama doğru şübhəli qidalardan qaçın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Marixuana çəkənlər xərçəng olurlar



ABŞ-ın Kaliforniya Universitetindən olan mütəxəssislər bu haqda "Cancer" jurnalında məlumat vermişlər. Belə ki, onlar marixuana çəkməklə müalicəyə tabe olmayana yumurtalıq xərçəngi arasında sıx əlaqənin olduğunu müşahidə etmişlər. Kanserogen effekt nəinki davamlı istifadə zamanı həmçinin maraq naminə bir və ya bir neçə dəfə dadına baxarkən də formalaşır. 15-45 yaş arası əhali arasında daha intensiv şəkildə yayılan xəstəlik nəticə etibarilə müalicəyə çətin tabe olan və ümumiyyətlə, olmayan şəkildə keçirilir və pis mühitin nəticəsidir. 192 xəstə və 292 sağlam xəstəni sorğudan keçirən mütəxəssislər belə nəticəyə gəlmişlər ki, marixuanadan istifadə prosesi iki dəfəyə qədər sürətləndirir.

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.100